QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 220 (5940) **28 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Sumqayıt - Azərbaycan iqtisadiyyatının uğur tandemində

*Prezident İlham Əliyev: "Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir"*




Səh 2

4

Əli Əhmədov: "Uğursuz hakimiyyətdən qalan uğursuz müxalifətin taleyi xalqın lənətidir"



4

Siyavuş Novruzov: "Azərbaycanın yaradıcı insanları dövlətimizin qayğısını daim hiss edirlər"



7

Xəyanətkar müxalifətin "ən axırıncı yolu"



# Sumqayıt - Azərbaycan iqtisadiyyatının uğur tandemində

## *Prezident İlham Əliyev: "Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir"*

***Bu gün Azərbaycanın son on altı ildə əldə etdiyi möhtəşəm, əzəmətli inkişafı ölkə Prezidenti İlham Əliyevin adı və Onun, bilavasitə həyata keçirdiyi düşünülmüş siyasətilə bağlıdır. On altı il... Bu on altı il, tarix baxımından qısa bir dövr ərzində, Azərbaycanın iqtisadiyyatı 3 dəfə artıb və bu, inkişafımızın əsasında dayanan fundamental və ciddi amildir.***



Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır, yaşadığı məkanın getdikcə inikşafını gördükcə sabaha daha böyük bağlılıqla inanır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri, bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Bəli, Azərbaycanda aparılan inkişaf və əldə olunan uğurlar, məhz Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Xüsusilə də, bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Dövlət başçısı əldə olunan nailiyyətlərinə görə, Azərbaycanın bu gün dünya miqyasında böyük nüfuza malik olduğunu deyərkən, vurğulamışdır ki, iqtisadi baxımdan, son 16 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur.

### "Ancaq 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır"

Məhz ölkə Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsidir ki, Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bunun, Sumqayıt səfəri zamanı, bir daha şahidi olduq.

"Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir" deyən dövlət başçısı, onu da vurğulayıb ki, qədim tarixə malik olan Sumqayıt, şəhər kimi, 70 il bundan əvvəl formalaşdı: "1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılmış və Sumqayıtın sürətli inkişafı başlamışdır. Sumqayıt sənaye şəhəri kimi formalaşdı, kimyaçılar şəhəri kimi inkişaf etdi. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılmışdır. Azərbaycanın müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlamışdır. Eyni zamanda, Sovet İttifaqının digər respublikalarından gələnlər Sumqayıtda işlə təmin olunmuşdular".

Dövlət başçısı Sumqayıtın Sovet İttifaqı dövründə ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərdiyini və 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başladığını bildirdi: "Ancaq 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdir, müvafiq tədbirlər görülmüşdür, təmizləyici qurğular quraşdırılmışdır və 1970-ci illərdə şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdır, ancaq standartlara hələ də tam cavab vermirdi. Ancaq bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, havası təmizdir, təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcək".

### "1982-ci ildə Ulu Öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır"

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev dövründə Sovt İttifaqı müstəvisində mühüm Ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf edən Sumqayıtın 1982-ci ildə Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, gənclər şəhərinin də tənəzzül dövrünün başlanıldığını bildirdi: "O vaxtkı respublika rəhbərliyi, Heydər Əliyevin fəaliyyəti dövründə, Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf etdi, burada yeni yaşayış binaları tikildi, sosial obyektlər yaradıldı, parklar, xiyabanlar salındı, ağaclar əkildi və Sumqayıt Sovet İttifaqı müstəvisində mühüm Ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf etmişdir. 1982-ci ildə Ulu Öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır. O vaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində, Azərbaycanda inkişaf, demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini kimi Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə, 1985-ci ildən sonra Sovet İttifaqında dırnaqarası yenidənqurma dövrü başlamışdı. Həm Sovet İttifaqında çox mənfi proseslər getməyə başlamışdı, o cümlədən, Azərbaycanda. Təsadüfi deyil ki, dırnaqarası yenidənqurma siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü".

### "Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz Onun yolu ilə gedirik"

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin tarixi hadisə olduğunu, bu gün də Onun yürütdüyü siyasətlə gedildiyini bildirib: "Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz Onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır. Ulu Öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti olmuşdur. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim, 15 il ərzində, sayca 24-cü səfərdir. Yəni bu, özlüyündə, göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir".

### Sumqayıt son 16 ildə: görülən işlər, uğurlu nəticələr

Ölkə Prezidenti, son 16 il ərzində, Sumqayıtın problemləri ilə bağlı böyük işlərin görüldüyünü bildirdi: "Əlbəttə ki, Sumqayıtın problemlərinin həlli istiqamətində böyük işlər görülüb. İlk növbədə, infrastruktur müasirləşdirilməli idi. Bu məqsədlə hələ 2005-ci ildə 525 meqavat gücündə elektrik stansiyası istifadəyə verildi, böyük vəsait xərcləndi. Qazlaşdırmanın səviyyəsi 100 faizə çatıbdır. İçməli su problemi həllini tapıbdır. Şəhərdaxili yollar yenidən tikilir, abadlaşdırılır, təmir olunur. Bakı-Sumqayıt yolu tikildi. İndi göstəriş vermişəm ki, yol genişləndirilsin. Çünki artan nəqliyyat sıxlıq və tıxac yaradır. Biz bunu da həll edəcəyik. Bakı-Sumqayıt qatarı artıq fəaliyyət göstərir. Özü də dünyanın ən qabaqcıl şirkətinin istehsalı olan ikimərtəbəli, çox rahat "Stadler" vaqonlarıdır. Verilmiş kredit hesabına şəhər nəqliyyatı üçün müasir avtobuslar gətirildi. Yəni bütün bu işlər planlı şəkildə həyata keçirilir."

Dövlət başçısı Suqayıtda məskunlaşan məcburi köçkünlər üçün yeni şəhərciklər, evlər tikildiyini və bundan sonra da bu işlərin aparılacağını vurğuladı: "Məcburi köçkünlər üçün yeni şəhərciklər və evlər tikilir. Bu il 1800 ailə artıq yerləşibdir. Gələn il minimum 3 min köçkün ailəsi yeni evlərə köçəcək. Köçkünlər üçün Sumqayıtda evlərin tikintisi bundan sonra da təmin ediləcək ki, yeni evsiz-eşiksiz, pis vəziyyətdə yataqxanalarda, bağçalarda və s. yerlərdə yaşayan köçkünlər yaxşı evlərə köçürülsünlər. Biz bunu da edəcəyik".

Ölkə başçısı, həmçinin, Sumqayıt şəhərində məktəb və səhiyyə sahəsinə də xüsusi diqqətin yetirildiyini bildirdi: "1 saylı xəstəxana mənim göstərişimlə, artıq 5-6 ildir ki, təmirdən çıxıb. İndi 2 saylı xəstəxananın təmiri və əslində, yenidən tikilməsi üçün vəsait ayrıldı. Biz bunu da edəcəyik".

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan və Rusiya əlaqələri ölkələrarası münasibətlərin genişlənməsinə töhfəsini verir

## *Mehriban Əliyeva: "Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi görüşlər bizim münasibətlərin çoxvektorluluğunu təyin edir..."*



***"Bu gün biz Azərbaycan-Rusiya münasibətlərini strateji tərəfdaşlıq kimi səciyyələndiririk. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında münasibətlər öz tarixi ərzində ən yüksək səviyyədədir". Bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva TASS agentliyinə, "Rossiyskaya qazeta"ya və "Rossiya-24" telekanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, ölkələrimizi möhkəm dostluq və mehriban qonşuluq ənənələri bağlayır: "Fəal siyasi dialoq mövcuddur, Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi görüşlər bizim münasibətlərin çoxvektorluluğunu təyin edir və demək olar ki, bütün sahələrdə qarşılıqlı əlaqələrin inkişafına təkan verir". Azərbaycanın Birinci vitse-prezidentinin müsahibəsi noyabrın 24-də TASS İnformasiya Agentliyinin və "Rossiyskaya qazeta"nın saytlarında yerləşdirilib. Noyabrın 25-də isə müsahibə geniş oxucu kütləsi olan rəsmi "Rossiyskaya qazeta" nəşrində dərc edilib.***

### "Bu mükafatı almaq mənim üçün böyük şərəfdir, mən onu Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin daha bir təsdiqi kimi qiymətləndirirəm"

Azərbaycan ilə Rusiya arasında mövcud olan əlaqələr ölkələrarası münasibətlərin genişlənməsinə töhfələrini verir. Bu münasibətlərin əsasını qədim dostluq və mehriban qonşuluq ənənələri təşkil edir. İki ölkənin dövlət başçıları, hökumətləri və parlamentləri arasında qarşılıqlı etimada əsaslanan əlaqələr, məhz bu cür möhkəm təməl üzərində inkişaf edir. Əlbəttə ki, noyabrın 21-24-də Mehriban xanım Əliyevanın Rusiyada rəsmi səfərdə olması bu münasibətlərin daha bir ifadəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə və Federasiya Şurasının sədri Valentina Matviyenko görüşü bu əlaqələrin daha da möhkəm olmasına dələlət edir. Görüş çərçivəsində Vladimir Putin Mehriban xanım Əliyevanı iki ölkənin münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni təqdim edib: "Bu mükafatı almaq mənim üçün böyük şərəfdir, mən onu Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin daha bir təsdiqi kimi qiymətləndirirəm. Əlbəttə, şadam ki, bizim strateji tərəfdaşlığımızın inkişafı işində mənim də müəyyən töhfəm var".

### "Rusiya Azərbaycanın ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalına görə birinci yeri tutur"

Rusiya ilə Azərbaycanın münasibətləri, həqiqətən, heç vaxt indiki qədər sıx olmayıb və bu münasibətlərin kökləri uzaq keçmişə gedib çıxsa da, bugünkü münasibətlərdə ölkə başçılarının rolu müstəsnadır. İki ölkənin dövlət başçıları, hökumətləri və parlamentləri arasında qarşılıqlı etimada əsaslanan əlaqələr, məhz bu cür möhkəm təməl üzərində inkişaf edir. Ticari-iqtisadi və investisiya, energetika sferalarında, nəqliyyat infrastrukturu və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq dərinləşir.

"Rusiya-Azərbaycan münasibətləri çox geniş spektri əhatə edir" deyən Mehriban xanım Əliyeva iqtisadi sahəyə, bu sahədə qarşılıqlı əlaqələrə nəzər salsaq, burada uğurlu qarşılıqlı fəaliyyət artıq öz bəhrələrini verdiyini bildirib: "Rusiya Azərbaycanın ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalına görə birinci yeri tutur. Sevindirici haldır ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin durmadan artması müşahidə olunur. Ötən il Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 19 faiz artaraq, 2,6 milyard dollara bərabər olub. Cari ilin doqquz ayı ərzində bu göstəricinin artıq 26 faizə çatması müşahidə olunur, qarşılıqlı sərmayə qoyuluşu göstəriciləri də yaxşıdır. Rusiyanın Azərbaycanda sərmayə qoyuluşunun həcmi 4,9 milyard dollardır. Azərbaycan Rusiya iqtisadiyyatına 1,2 milyard dollar investisiya yatırıb. Çox sevindirici haldır ki, son vaxtlar neft sektorunda ənənəvi qarşılıqlı fəaliyyətlə bərabər, qeyri-neft sektorunda, maşınqayırma, istehsal avadanlığı, kimya sənayesi, əczaçılıq, energetika, nəqliyyat kimi sahələrdə çoxsaylı müştərək layihələr inkişaf etdirilir".

### "Bizim ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır, hər il rus dili olimpiadası keçirilir..."

Bildiyimiz kimi, Mehriban xanım Birinci vitse-prezident kimi humanitar, sosial və mədəni sahələrin inkişafına xüsusi diqqət yetirir. Bu da, Rusiya-Azərbaycan əməkdaşlığının çox mühüm amilləri sırasındadır. Bu humanitar sahə bütün insanlara, mənəvi həyata və tarixi köklərə şamil olunur. Mehriban xanım Əliyeva müsahibəsində humanitar sahədə Azərbaycan-Rusiya münasibətlərinin nümunəvi xarakter daşıdığını bildirib: "Bizim paytaxtımızda Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılmış Beynəlxalq Humanitar Forum mütəmadi keçirilir. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə qayğıkeş və hörmətli münasibət hamıya məlumdur. Bizim ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır, hər il rus dili olimpiadası keçirilir, 14 dövlət ali məktəbində rus dili kafedraları və rus bölməsi fəaliyyət göstərir. Keçən il 130 mindən çox orta məktəb şagirdi və 25 mindən artıq ali məktəb tələbəsi rus dilində təhsil alıb".

Ali məktəblər arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirən Mehriban Əliyeva Azərbaycanda, paytaxtımızda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarının uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Onu da vurğulayıb ki, bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birlikdə icrasına başlanıb.

Mehriban Əliyeva Azərbaycanda çoxminli rusdilli icmanın olduğunu və bu icmanın ölkəmizin ümumi inkişafına layiqli töhfə verdiyini vurğulayıb: "Bu il Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçirilib. Gələn il qarşılıqlı tədbir - Rusiyada Azərbaycan Mədəniyyəti Günləri keçirilməsi planlaşdırılır. Dediyim kimi, bu sahədə bizim münasibətlərimiz nümunəvidir. Bu, çox vacibdir, çünki bu sahə, həqiqətən, insanları və xalqları yaxınlaşdırır. Biz də bu ortaq humanitar məkanı qoruyub-saxlamaqda maraqlıyıq".

### "Multikulturalizm" sözü bizim leksikonumuzda yetərincə təzə sözdür, lakin bu sözün arxasında dayanan ənənələrin çoxəsrlik tarixi var"

Azərbaycan multikultural bir dövlət kimi dünyada tanınır. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm-alternativi olmayan həyat tərzinə çevrilib. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə malik olan multikultural cəmiyyətdir. Bu dəyərlər insanları sülhə və dostluğa səsləyir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar. Mehriban Əliyevaya ünvanlanan "Buna nəyin hesabına nail olursunuz? Bu, yalnız tarixi köklərdən irəli gəlir, yoxsa bugünkü Azərbaycan iqtidarının məqsədyönlü fəaliyyətinin nəticəsidir?" suallarını belə cavablandırıb: "Azərbaycan Respublikasının Prezidenti öz çıxışlarının birində qeyd edib ki, "multikulturalizm" sözü bizim leksikonumuzda yetərincə təzə sözdür, lakin bu sözün arxasında dayanan ənənələrin çoxəsrlik tarixi var. Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşir və sözsüz ki, bu, onun çoxəsrlik tolerantlıq və multikulturalizm mədəniyyətinə də təsir göstərir. Müxtəlif millətlərə, mədəniyyətlərə və dinlərə mənsub insanlar əsrlər boyu ölkəmizdə sülh, həmrəylik və dostluq şəraitində yaşayıblar və yaşayırlar, bu gün də bu ənənə dövlət siyasəti ilə dəstəklənir. Buna görə Azərbaycan bu gün beynəlxalq aləmdə artıq dinlərarası, millətlərarası və mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə yönəlmiş çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi tanınmış məkana çevrilib".

Bu yaxınlarda paytaxtımızda keçirilən Dünya Dini Liderlərinin ikinci Sammitin əsas məqsədi beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan etmək idi. Dünya Dini Liderlərinin ikinci Sammitində Moskvanın və bütün Rusiyanın patriarxı Kirill də iştirak və çıxış etdiyini bildərən Mehriban Əliyeva onun bütün ismarıclarının, müraciətlərinin bu gün aktual olduğunu diqqətə çatdırıb: "...ona görə ki, dünyada bu təhlükəli hadisələrin artması çox meyili təəssüf doğurur. Mən əminəm ki, bu təhdidləri yalnız ümumi səylərlə, həm dövlət başçıları səviyyəsində, həm də adi vətəndaş cəmiyyəti arasında səylərlə dayandırmaq olar".

Azərbaycan qlobal miqyasda ümumbəşəri dəyərlərin carçısı, dünya miqyasında multikulturalizm, islam həmrəyliyi ideyalarının fəal təbliğatçısıdır.

### "Biz konkret vətəndaşı görməyə və eşitməyə çalışırıq"

Beynəlxalq ictimai humanitar xeyriyyə təşkilatlarından birinə çevrilən Heydər Əliyev Fondu bu gün dünyada çox nüfuzlu humanitar təşkilat imicinə malikdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti müsahibəsində bildirib ki, fond 15 illik fəaliyyəti ərzində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda böyük hörmət qazanıb: "Fondun əsas ideologiyası ondan ibarətdir ki, irimiqyaslı layihələri reallaşdırmaqla bərabər, bu illər ərzində ölkəmizdə fondun xətti ilə, həqiqətən, çox işlər görülüb, yüzlərlə məktəb və uşaq bağçası tikilib, tarixi abidələr bərpa edilib və çoxsaylı tədbirlər təşkil edilib. Biz həmişə bir məqamı unutmamağa çalışırıq ki, bütün bu işlər ölkəmizdə insanların daha yaxşı yaşamasına yönəlib, biz konkret vətəndaşı görməyə və eşitməyə çalışırıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əli Əhmədov: "Uğursuz hakimiyyətdən qalan uğursuz müxalifətin taleyi xalqın lənətidir"

***"Prezident İlham Əliyevin Sumqayıt şəhərinin 70 illik yubiley təntənələrində Azərbaycanın müasir tarixi ilə əlaqədar səsləndirdiyi fikirlər, ələlxüsus, 1992-93-cü illərdə hakimiyyətdə olmuş AXC-Müsavat hakimiyyətinin fəaliyyəti və vəzifə sahiblərinə verdiyi xarakteristika cəmiyyətdə xüsusi maraqla qarşılanıb. Tanınmış bir yazıçıya məxsus "sürünmək üçün yarananlar uça bilməzlər" aforizmi sözügedən hakimiyyətin təmsilçilərinin mahiyyətinə tamamilə uyğun gəlir. Bu sətirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi "facebook" səhifəsində paylaşım etdiyi "Kiçik elmi işçilərin hakimiyyəti - Onlar böyük işlər üçün yaranmamışdılar" sərlövhəli məqaləsində yer almışdır.***



Əli Əhmədov məqaləsində qeyd edib ki, Sovet İttifaqı kimi nəhəng imperiyanın qəfil dağılmasını, azacıq da olsa, işə yarayan dünyagörüşlü və dövlətçilik təcrübəsinə malik lideri olmadan qarşılamağa məhkum olan Azərbaycan 1992-ci ildə hakimiyyətin, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "kiçik elmi işçilər" tərəfindən zəbt edilməsinə münbit zəmin yaratdı. Orasını da qeyd etmək yerinə düşər ki, bioqrafiyasında kiçik elmi işçilikdən savayı cəlbedici heç nə olmayanlar o zamankı hakimiyyətin elitası sayılırdı. Yerdə qalanlar isə kiçik elmi işçilərə həsəd aparanlar idi. Sonuncuların hakimiyyətdə təmsil olunmaq hüququ meydanlarda keçirdikləri günlərin sayına proporsional olaraq tanınırdı.

"Hakimiyyətin zəbt olunması prosesində atılan ilk addım prezident administrasiyasından tutmuş bütün mərkəzi və yerli hakimiyyət orqanlarının inzibati binalarının zorla boşaldılması oldu. Meydandakılar (əlbəttə, səmimi hisslərlə xalq hərəkatına qoşulan çoxsaylı insanlardan söhbət getmir) həmin binalarda kabinetləri tutdular, özləri özlərini vəzifə sahibi elan etdilər. Kim hansı kabineti tuta bildisə, oldu həmin vəzifənin sahibi. Bu məqamda sabiq Prezident Heydər Əliyevin məşhur bir kəlamı yada düşür - KAMAZ şoferləri rayonların icra başçıları oldular.

Ali vəzifələrdə oturanlar isə kiçik elmi işçilər idi. Baş nazir kiçik elmi işçi, parlamentin sədri - kiçik elmi işçi, müdafiə naziri texniki universitetin müəllimliyindən savayı heç bir iş təcrübəsi olmayan təsadüfi adam. O zamankı hakimiyyət ierarxiyasında kifayət qədər yüksək vəzifə sayılan dövlət katibi postuna isə universiteti yenicə bitirmiş Əli Kərimov yiyələndi. Bu, onun ilk iş təcrübəsi idi. Universitet auditoriyasından birbaşa çox yüksək dövlət vəzifəsinə təyinat almaq nümunəsinə heç bir dövlətdə, normal hakimiyyətlərin hansındasa rast gəlmək mümkün deyil. AXC-Müsavat hakimiyyətində isə bu anormallıq adi praktika idi. Başqa bir misal olaraq, onu deyə bilərəm ki, Xarici İşlər Nazirliyinin idarə rəisi kimi kifayət qədər məsul və xüsusi təcrübə tələb edən bir vəzifəyə Bakı Dövlət Universitetinin 4-cü kurs tələbəsi təyin edilmişdi" deyə Baş nazirin müavini qeyd edib.

YAP Sədrinin müavini Əli Əhmədov fikirlərini davam etdirərək qeyd edib: "Təsadüfi, naşı, bir sıra hallarda, mənəvi keyfiyyətləri ikrah doğuran insanların hakimiyyətdə total şəkildə təmsil olunmalarının nəticəsi özünü çox gözlətmədi. Sözün həm məcazi, həm də birbaşa mənasında AXC-Müsavat hakimiyyətinin yaratdığı acınacaqlı mənzərəni orta və yuxarı yaşlı insanların yaxşı xatırladıqlarını düşünürəm. Çünki o zamankı xaos və anarxiyanı, fabrik və zavodların bağlanması nəticəsində yaranan kütləvi işsizliyi, çörək növbələrini, 1600 faizə çatan inflyasiyanı, hazırlıqsız gənclərin küçələrdən ovlanaraq cəbhə xəttinə göndərilməsini və çoxsaylı mənasız ölümləri, tüğyan edən separatizmin Azərbaycanın bütövlüyünə yaratdığı real təhlükələri və sair buna bənzər yaramazlıqları unutmaq mümkün deyil. Təəccüb doğuran odur ki, bu qədər dərin böhranı və dağıntıları onlar cəmi bir ildə necə edə bildilər. Görün nə qədər yırtıcı, dağıdıcı olmaq lazımdır ki, 13 ayın ərzində ölkəni bütünlüklə defolt və parçalanmaq həddinə çatdırasan.

Qeyd etdiyim kimi, nəticəni çox gözləmək lazım gəlmədi. Xalq ayağa qalxdı, ölkəni müsibətlərə salmış antixalq hakimiyyətini devirdi, Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Azərbaycan müsibətlərdən, parçalanmaqdan, müstəqilliyi itirməkdən xilas edildi".

Tariximizin bu acı həqiqətlərini bir daha xatırlamaqda fayda olduğunu qeyd edən Baş nazirin müavini Əli Əhmədov fikirlərini bu cür tamamlayır: "Çünki haqqında danışdığımız yarıtmaz hakimiyyətin uğursuz təmsilçiləri 26 ildən çoxdur müxalifətdə pusquda durub yenidən Azərbaycanın inkişaf, müasirləşmə, firavanlıq, əmin-amanlıq yolunun qarşısını almağa fürsət gözləyirlər. Ümidlərini 1992-93-cü illərin müsibətlərini görməmiş gəncləri aldadıb öz tərəflərinə çəkməyə, bir də Azərbaycana qarşı mərkli planlarını həyata keçirməyə çalışan bəzi xarici qüvvələrə bağlayıblar. Bunun adı isə xəyanətdən başqa bir şey deyil. Xəyanətin cavabı həmişə lənət olub - xalqın lənəti. Uğursuz hakimiyyətdən qalan uğursuz müxalifətin taleyi başqa cür ola bilməz.

1992-93-cü illərin yuxarıda sadaladığımız bəlalarının və yaramazlıqlarının alternativi bugünkü Azərbaycandır, onun gündən-günə artan iqtisadi qüdrəti, insanların yüksələn rifahı, ölkəmizin dünyadakı hörmət və nüfuzu, eyni zamanda, heç kimin şübhə etmədiyi daha parlaq gələcəyidir. Bütün bunların mərhum Prezident Heydər Əliyevin və Prezident İlham Əliyevin gərgin əməyi, müdrikliyi, uzaqgörənliyi, habelə, Azərbaycana bitməz-tükənməz sevgisi sayəsində ərsəyə gəldiyini insanlarımız yaxşı bilir və yüksək qiymətləndirir. Bugünkü iqtidarın gücü xalqın ona olan dərin inamında və etimadındadır. Hakimiyyət üçün bundan gözəl tale təsəvvür etmək mümkün deyil".

**RƏFİQƏ HÜSEYNOVA**

# Siyavuş Novruzov: "Azərbaycanın yaradıcı insanları dövlətimizin qayğısını daim hiss edirlər"



"Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu il "Nəsimi İli" elan olunub və bu il çərçivəsində müxtəlif tədbirlər keçirilib. Bu il Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi qeyd olunur və "Nəsimi İli" elan olunması da görməkli şairə və onun yaradıcılığına verilən yüksək qiymətin ifadəsidir". Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bu gün YAP İcra Katibliyində "Nəsimi İli" çərçivəsində təşkil olunan gənc rəssamların sərgisində deyib.

S.Novruzov bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən yaradıcı insanlara dövlətin diqqət və qayğısının əsası qoyulub. Belə ki, Ulu Öndərimiz həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik edərkən yaradıcı insanların əməyini hər zaman qiymətləndirib, onların yubileyləri qeyd olunub, dövlət mükafatları ilə təltif olunublar. Bu baxımdan, hələ sovetlər hakimiyyti dövründə də Nəsiminin yubileyi yüksək səviyyədə qeyd olunub. Müstəqillik dövründə isə bu proses daha geniş miqyas alıb.

YAP İcra katibinin müavini söyləyib ki, bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın yaradıcı insanları dövlətimizin qayğısını daim hiss edirlər. Onun sözlərinə görə, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti xüsusilə qeyd olunmalıdır. S.Novruzov deyib ki, Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin qorunması, inkişafı və dünyada təbliğ olunması ilə bağlı xidmətləri əvəzolunmazdır: "Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu həmçinin ölkəmizdəki və dünyadakı müxtəlif mədəniyyətlərə aid olan abidələrin qorunması, təmiri və bərpasını həyata keçirməkdədir".

# Ömər Eldarov: "Nəsimi yaradıcılığında mübarizlik, vətənpərvərlik və ədalət başlıca yer tutur"

"Ulu Öndərimiz Heydər Əliyev yaradıcı insanların böyük hamisi idi". Bu fikirləri Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov bu gün YAP İcra Katibliyində "Nəsimi İli" çərçivəsində təşkil olunan gənc rəssamların sərgisində deyib.

Azərbaycanda mədəniyyət və incəsənət sahəsinə Ulu Öndər Heydər Əliyevin qayğısından danışan Ö.Eldarov bildirib ki, yaradıcı insanlarımız bu qayğını heç zaman unutmayacaq. "Sevindirici haldır ki, Prezidentimiz İlham Əliyev Heydər Əliyev yolunu layiqincə davam etdirir" deyən, akademik respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki xidmətlərindən də geniş bəhs edib.

# Sevinc Fətəliyeva: Bu səfər Azərbaycan-Rusiya münasibətlərinin inkişafına böyük töhfələr verəcək



"Bu gün Azərbaycanla Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri yüksəksəviyyəli münasibətlərimizin bariz ifadəsidir". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, səfər çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Baş nazir Dmitri Medvedevlə görüşüb, eləcə də çoxsaylı tədbirlərdə iştirak edib. Onun sözlərinə görə, bütövlükdə, Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına səfər proqramı kifayət qədər zəngin olub. Azərbaycanın Birinci vitseprezidentinin Rusiya Federasiyasına səfəri və səfər çərçivəsində keçirilən görüşlərdə səmimilik şəraitində müzakirə edilən məsələlərin geniş spektri iki ölkə arasında mehriban qonşuluğu, tərəfdaşlığı və dostluğu əks etdirir.

"Azərbaycanın qonşu dövlətlərlə xoş məramа əsaslanan siyasətinin müsbət təzahürlərini həmçinin Rusiya ilə münasibətdə görmək mümkündür. Azərbaycan və Rusiya həm yaxın qonşular, həm də mehriban dostlardırlar. Əlamətdar haldır ki, iki ölkənin münasibətləri getdikcə möhkəmlənir və zamanın dəyişən çağırışlarına uyğun olaraq yeni çalarlarla daha da zənginləşir. Azərbaycanla Rusiya arasında müxtəlif istiqamətləri əhatə edən münasibətlər onilliklər ərzində sınaqdan çıxan tarixi ənənələrə söykənir. Ümumiyyətlə Azərbaycan-Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Həyatın elə bir sahəsi yoxdur ki, Azərbaycanla Rusiya sıx əməkdaşlıq etməsinlər. Azərbaycanla Rusiya arasında əməkdaşlığın yüksələn xətlə inkişafına iki ölkənin dövlət başçıları arasında formalaşan dostluq münasibətlərinin rolunu xüsusi vurğulamaq lazımdır. Ölkələrimiz arasında siyasi dialoq yüksək səviyyədədir. İki ölkənin dövlət başçıları və yüksək səviyyəli rəsmiləri mütəmadi görüşlər keçirərək əməkdaşlığın müxtəlif aspektlərini müzakirə edirlər. 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə 4, 2019-cu ildə isə 2 görüşü baş tutub. Azərbaycanla Rusiyanın dövlət başçıları arasında yüksək dinamizmi ilə fərqlənən siyasi dialoqun ruhuna uyğun olaraq iki ölkə arasında iqtisadi əlaqələr də adekvat şəkildə inkişaf edir. Mehriban xanım Əliyeva iqtisadi əməkdaşlığı Azərbaycanla Rusiya arasında ikitərəfli gündəliyin ən mühüm komponentlərindən biri kimi səciyyələndirib. Bütövlükdə, Mehriban xanım Əliyevanın Rusiyaya rəsmi səfəri çərçivəsində siyasi, iqtisadi, humanitar, mədəni və digər sahələrlə bağlı geniş müzakirələr aparılıb. Hesab edirəm ki, bu səfər Azərbaycan-Rusiya münasibətlərinin inkişafına böyük töhfələr verəcək"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Bakı böyük güclərin anlaşma mərkəzidir



NATO və Rusiya generallarının növbəti dəfə Bakıda görüşməsi heç də təsadüfi sayıla bilməz. Bu kimi görüşlərin Bakıda keçirilməsi Azərbaycanın siyasi-strateji əhəmiyyətinin göstəricisidir. Eyni zamanda, görüşün keçirilməsində Bakının seçilməsi, deməyə əsas verir ki, beynəlxalq hərbi birliklərə üzv olmasa da, Azərbaycan ABŞ, Avropa İttifaqı və Rusiya ilə çox yaxşı münasibətlərə malikdir və onların hörmət bəslədiyi dövlətdir. Bir sıra beynəlxalq layihələrin həyata keçirilməsində uğurlu iştirakı Azərbaycanın təkcə regionda deyil, daha geniş miqyasda sabitləşdirici rol oynadığının göstəricisidir. Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsində atdığı addım, regionda və beynəlxalq miqyasda terrorla mübarizəyə qarşı çıxması respublikanın əhəmiyyətini artıran amillərdəndir. Bu faktı da, vurğulamaq lazımdır ki, Azərbaycanın tarixən Şərqlə Qərb arasında körpü rolunu oynaması, onun strateji məsələlərin həyata keçməsində daşıdığı əhəmiyyətdən xəbər verir. Həmçinin, Azərbaycanın Qərb bloku ilə Rusiya arasında tutduğu mövqeyin beynəlxalq münasibətlərin tənzimlənməsinə töhfəsi olmaqla yanaşı, həm də Azərbaycanın bölgədə artan roluna da işarədir. Nəhayət, dünyanın təhlükəsizliyi sahəsində bu kimi görüşlərin vacibliyi və qarışıqlı dialoqların aparılması ölkəmizin təşəbbüskar rolunda çıxış etməsinə kifayət qədər zəmin yaradır. Növbəti keçirilən görüş də rəsmi Bakının bu prinsiplərə sadiqliyini nümayiş etdirir.

### Azərbaycan bütün dünyada sülh və stabillik tərəfdarı kimi dəyərləndirilir

Ən vacib məqam isə, Azərbaycan NATO-nun üzvü olmadığı halda və hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına da üzv olmadığı halda belə, öz sözünü deyən və beynəlxalq nüfuza malik olan dövlətdir. ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir. Sözsüz ki, bu görüş təkcə regionda deyil, həm də daha geniş miqyasda Azərbaycanın sabitləşdirici amil kimi rolunun artması deməkdir.

Beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase keçirilən görüşlər barədə bildirib ki, Bakıda Rusiya və NATO hərbi generallarının görüşü Azərbaycanın sülh və xalqlar arasında dialoqa böyük töhfə verdiyini göstərir. Amerikalı ekspertin fikrincə, Bakı son onilliklər ərzində, iri çoxtərəfli müzakirələrin və razılaşmaların aparıldığı bir çox Avropa şəhərlərini xatırladır və təəccüblü deyil ki, Azərbaycan iki dəfə ABŞ, NATO və Rusiya hərbi liderlərinin görüşünün məkanı seçilib. P.Tase, öz ərazisinin 20 faizinin ermənilər tərəfindən işğal edilməsinə baxmayaraq, Azərbaycanı bütün dünyada sülh və stabillik tərəfdarı kimi dəyərləndirir.

Siyasi politoloqlar da Azərbaycanın son illər öz balanslı siyasəti, iqtisadi inkişafı və yoxsulluqla uğurlu mübarizə siyasəti ilə fərqləndiyini vurğulayaraq, bildiriblər ki, Azərbaycan bir çox sahələrdə beynəlxalq əməkdaşlıq və dialoq platforması kimi özünü təsdiqləyib və belə görüşlərin keçirilməsi də artıq təəccüb doğurmur. Eyni zamanda, Bakının əvvəlki görüşlər kimi, növbəti qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsinin başqa səbəbi, Azərbaycanın həm coğrafi mövqeyinə, həm də dövlətimizin yürütdüyü siyasətin prioritetlərinə görə, Şərqlə Qərb arasında körpü rolunu oynayan dövlət olmasıdır. Etiraf edilməlidir ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Ələlxüsus, vurğulanmalıdır ki, belə mühüm görüşlərin Bakıda keçirilməsinin ən əsas səbəblərindən biri də Azərbaycan Liderinin, President İlham Əliyevin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır.

### "Bunu həm də bizim aramızda böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edirik"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbulu zamanı - Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrildiyini deyib: "Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yeni bu ənənə, artıq yaşayır və düşünürəm ki, davam edəcək. Biz bunu bizə böyük etimad əlaməti kimi qiymətləndiririk. Ona görə ki, belə görüşlərin keçirildiyi yer, çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir, - görüşlərin təməli 2017-ci ildə qoyulub, - bu, o deməkdir ki, bu məkan nəticə verir. Biz belə düşünürük".

### "Mehriban Əliyevanın Moskvada dünən başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi"

Prezident İlham Əliyev çıxışı zamanı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiyaya səfərini, keçirdiyi önəmli görüşləri müsbət qiymətləndirdiyini, tarixi hadisə hesab etdiyini bildirib: "Mehriban Əliyevanın Moskvada dünən başa çatmış rəsmi səfəri də, bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk".

Göründüyü kimi, məhz ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dayanıqlı inkişafını şərtləndirən əsas faktorlardan biri də qonşu dövlətlərlə siyasi-iqtisadi və humanitar əlaqələrin genişləndirilməsidir. Beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına öz töhfəsini verən Azərbaycanın mühüm tərəfdaşlardan biri, dost və mehriban qonşusu Rusiya Federasiyası ilə hərtərəfli əməkdaşlıq münasibətləri yüksək səviyyədə inkişaf edir. İstər hər hansı dövlət başçıları arasında dostluq əlaqələri ictimai-siyasi, ticari-iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlığın dinamik inkişafı, məhz Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasətin nəticəsi, Onun şəxsi nüfuzu, dövlətin regional və qlobal proseslərdə aktiv rol almasının reallığıdır.

**RƏFİQƏ KAMALQIZI**

# YAP İcra Katibliyində "Nəsimi İli" çərçivəsində gənc rəssamların əsərlərinin sərgisi təşkil olunub









Noyabrın 27-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Nəsimi İli" çərçivəsində gənc rəssamların əsərlərinin sərgisi təşkil olunub. Sərginin açılış mərasimində çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu il "Nəsimi İli" elan olunub və bu il çərçivəsində müxtəlif tədbirlər keçirilib. Onun sözlərinə görə, bu il Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi qeyd olunur və "Nəsimi İli"nin elan olunması da görkəmli şairə və onun yaradıcılığına verilən yüksək qiymətin ifadəsidir.

S.Novruzov qeyd edib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən yaradıcı insanlara dövlətin diqqət və qayğısının əsası qoyulub. Belə ki, Ulu Öndərimiz həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik edərkən yaradıcı insanların əməyini hər zaman qiymətləndirib, onların yubileyləri qeyd olunub, dövlət mükafatları ilə təltif olunublar. Bu baxımdan, hələ sovetlər hakimiyyəti dövründə də Nəsiminin yubileyi yüksək səviyyədə qeyd olunub. Müstəqillik dövründə isə bu proses daha geniş miqyas alıb.

YAP İcra katibinin müavini söyləyib ki, bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmzin yaradıcı insanları dövlətimizin qayğısını hər zaman hiss edirlər. Onun sözlərinə görə, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti xüsusilə qeyd olunmalıdır. S.Novruzov deyib ki, Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin qorunması, inkişafı və dünyada təbliğ olunması ilə bağlı xidmətləri əvəzolunmazdır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu həmçinin ölkəmizdəki və dünyadakı müxtəlif mədəniyyətlərə aid olan abidələrin qorunması, təmiri və bərpasını həyata keçirməkdədir.

Bu gün təşkil olunan sərgidə Azərbaycan Rəssamlıq Akademiyasının tələbələrinin əsərlərinin təqdim olunduğunu deyən natiq söyləyib ki, akademiyanın rektoru, görkəmli heykəltaraş Ömər Eldarov Azərbaycan mədəniyyətinə və incəsənətinə böyük töhfələr verib. Hazırda akademiyanın tələbələri də onun yolunu davam etdirilər.

Tədbirdə çıxış edən Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov təşkil olunan bu sərginin əhəmiyyətini vurğulayıb. Azərbaycanda mədəniyyət və incəsənət sahəsinə Ulu Öndər Heydər Əliyevin qayğısından danışan Ö.Eldarov deyib ki, Ulu Öndərimiz yaradıcı insanların böyük hamisi idi. "Sevindirici haldır ki, Prezidentimiz İlham Əliyev Heydər Əliyev yolunu layiqincə davam etdirir" deyən, akademik respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki xidmətlərindən də geniş bəhs edib.

Mədəniyyət nazirinin birinci müavini, YAP İdarə Heyətinin üzvü Vaqif Əliyev çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyi arasında birgə fəaliyyət planı təsdiq olunub. Bu sərginin təşkil olunması birgə fəaliyyət planının tərkib hissəsi hesab oluna bilər.

V.Əliyev qeyd edib ki, "Nəsimi İli" çərçivəsində bir çox tədbirlər keçirilib. Bu tədbirlər həm ölkəmizdə, həm də xaricdə təşkil olunub. Onun sözlərinə görə, bütün bunlar Nəsimi yaradıcılığına verilən önəmin ifadəsidir. V.Əliyev deyib ki, gənc rəssamların əsərləri də böyük mütəfəkkir İmadəddin Nəsiminin yaradıcılığına olan ehtiramın ifadəsidir. Daha sonra sərgidə əsərləri təqdim olunan gənc rəssamlara fəxri fərmanlar təqdim olunub.

# “Mehriban Əliyevanın Rusiyaya uğurlu səfəri xarici diplomatiyamızın təkzibedilməz uğurudur”

*“Azərbaycanla Rusiya arasında münasibətlər söz yox ki, qədim və keşməkeşli tarixə, mehriban qonşuluq və dostluq ənənələrinə söykənir”. Bu fikirləri “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı təhlilində qeyd edib.*



Onun sözlərinə görə, Rusiya Federasiyası ilə əməkdaşlıq məsələsi dövlətimizin xarici siyasətində həmişə prioritetlik təşkil etməklə yanaşı, həm də strateji əhəmiyyət kəsb edib: “Bu gün də hər iki ölkənin liderləri-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putin bu münasibətlərin daha da dərinləşdirilməsi, iqtisadi-ticari əlaqələrin genişlənməsi istiqamətində uğurla fəaliyyət göstərirlər, dinamik inkişaf üçün davamlı fəaliyyət göstərirlər. Prezidentlər və digər yüksək postlar səviyyəsində müntəzəm siyasi dialoqlar, müzakirələr aparılır”.

Siyasi ekspert vurğulayıb ki, Azərbaycan və Rusiya beynəlxalq arenada da bir-birinə müntəzəm dəstək verirlər: “ Məhz bu baxımdan, Azərbaycanın Birinci vitse-prezidenti, xanım Mehriban Əliyevanın Moskvaya rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə də bütün bunlar barəsində söhbətlər aparıldı, qənaətlərə gəlindi. Xüsusilə, Mehriban Əliyevanın noyabrın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşündə ona RF-nin “Dostluq” ordeninin təqdim olunması Moskva-Bakı münasibətlərinin nə qədər yüksək dərəcədə zirvələrə qalxdığını, tərəqqi etdiyini isbatladı. Belə ki, Vladimir Putinin Rusiya Prezidenti Mehriban Əliyeva ilə görüşərkən, ilk növbədə, cənab İlham Əliyev ilə böyük etimada əsaslanan mehriban münasibətləri olduğunu bəyan etməsi də bu xüsusdadır”.

B.Quliyev qeyd edib ki, ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin artan həcmindən məmnun olduğunu bildirən Rusiya Prezidentinin dediyi kimi, Azərbaycanda rus dili və mədəniyyətinə münasibətin qorunub saxlanması da bu kimi yüksək meyarlara söykənən amillərdəndir: “Mehriban xanım Əliyeva isə Moskvanın onun üçün yaxın, doğma şəhər olduğunu, tələbəlik illərinin burada keçdiyini xatırlatması isə mövcud münasibətlərin inkişafına müsbət təsirlərin olmasına müsbət təsirlər göstərdiyini vurğulayıb. Ümumiyyətlə, Mehriban xanım Rusiya ilə Azərbaycan arasında humanitar sahədə münasibətlərin yüksək səviyyədə olduğunu, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox böyük hörmət bəslənildiyini də qeyd etməklə, qarşılıqlı əlaqələrin mühümlüyünü də vurğulayıb. Mehriban xanım Moskvaya rəsmi səfəri çərçivəsində Rusiya hökumətinin sədri Dmitri Medvedev və Federasiya Şurasının sədri Valentina Matviyenko tərəfindən də hərarətlə qarşılanıb. Belə ki, Azərbaycanın Birinci vitse-prezidenti Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş “Azərbaycan” pavilyonunun açılış mərasimində iştirak edib və çıxış edib və bu gerçəkliklər bütün bunlar şimal qonşumuz Rusiyanın Azərbaycanla yüksək səviyyəli münasibətindən xəbər verir. Əlbəttə ki, bizlər İnanırıq ki, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Moskvaya səfəri bu münasibətləri daha da möhkəmləndirəcək. Bütövlükdə isə, Azərbaycanın qüdrəti və gücünün istər Rusiyada, istərsə də MDB məkanındakı rolu və əhəmiyyəti daha dərindən anlaşılaraq qəbul ediləcək. Bu, həm də bizim dövlətimizin xarici diplomatiyasınIn təkzibedilməz uğurudur”.

# Mərkəzi Seçki Komissiyası KİV nümayəndələri üçün yaddaş kitabçası nəşr etdirib

Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar maarifləndirmə proqramı çərçivəsində “Kütləvi informasiya vasitələrinin nümayəndələri üçün yaddaş” kitabçası hazırlanıb. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihə kütləvi informasiya vasitələrinin bələdiyyə seçkilərindəki sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsi və onlara metodiki kömək göstərilməsinə hədəflənib. Nəşrdə seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin edilməsi, seçki subyektlərinin maarifləndirilməsi, habelə seçkiqabağı təşviqat prosesi və səsvermə günü kütləvi informasiya vasitələrinin rolu və vəzifələri geniş izah olunub. Yaddaş kitabçası Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, “Kütləvi informasiya vasitələri haqqında” Qanun və MSK tərəfindən qəbul edilən normativ xarakterli sənədlər əsasında hazırlanıb.




“Kütləvi informasiya vasitələrinin nümayəndələri üçün yaddaş” kitabçasını aşağı seçki komissiyalarından və MSK-nın rəsmi internet səhifəsindən (www.msk.gov.az) də əldə etmək mümkündür.

# “Mehriban Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin inkişafına böyük töhfə verir”

*“Azərbaycan ilə Rusiya arasındakı münasibətlər qonşuluq əlaqələrindən strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib. Çünki Rusiya ilə Azərbaycanı qədim tarixi köklər bağlayır, xalqlarımız iki əsrə yaxın müddətdə bir dövlətin tərkibində yaşayıb. Bu gün isə iki müstəqil dövlət kimi Azərbaycan və Rusiya münasibətləri Prezident İlham Əliyevin və Vladimir Putinin rəhbərliyi ilə inkişafının yeni mərhələsinə qədəm qoyub. Əlbəttə ki, bu əlaqələrə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da səmərəli fəaliyyəti ilə böyük töhfələr verir”.*



Bu sözləri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya səfəri çərçivəsində bu ölkənin Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşməsi, “Dostluq” ordeni ilə təltif olunması, Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Azərbaycan” pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılışında, X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etməsi əlamətdar hadisə oldu.

Vüqar Rəhimzadə vurğulayıb ki, Azərbaycanla Rusiya arasında humanitar əlaqələrin qurulmasında Mehriban xanım Əliyevanın xüsusi rolu vardır: “Onu da qeyd edim ki, postsovet məkanında ilk Rus Kitabı Evi, məhz Bakıda açılıb. Burada bakılılar və şəhərimizin qonaqları Rusiyanın aparıcı nəşriyyatlarının geniş çeşiddə kitab məhsulları ilə tanış olmaq üçün gözəl imkana malikdirlər. 2007-ci ildə Azərbaycan Birinci Beynəlxalq Mstislav Rostropoviç Festivalına uğurla ev sahibliyi edib, görkəmli musiqiçiləri və məşhur kollektivləri bir səhnəyə toplayıb. Bakıda rus dilinin öyrənilməsi üzrə iri mərkəzlərdən biri - Bakı Slavyan Universiteti fəaliyyət göstərir, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialı açılıb, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi fəaliyyət göstərir, Səməd Vurğun adına Rus Dram Teatrı çox populyardır. Rusiyanın bir sıra informasiya agentliklərinin Azərbaycanda müxbir məntəqələri var. Rus dilində 50-dən çox qəzet və jurnal nəşr edilir, külli miqdarda Rusiya dövri nəşrləri yayılır. Eyni zamanda, “Bakinski raboçi” qəzetinə əlavə kimi Rusiya mətbuatının “Vesti iz Rossii” daycesti buraxılır. Rus Pravoslav Kilsəsi Rus İcmasının mədəni və mənəvi irsinin, adət və ənənələrinin qorunub-saxlanılmasında mühüm rol oynayır. Respublikada bu kilsəyə dərin hörmətlə yanaşırlar. Keçən il Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsinin ərazisində Azərbaycan hökumətinin köməyi ilə tikilmiş Pravoslav Dini-Mədəni Mərkəzinin açılması buna əyani sübutdur”.

“Azərbaycan Rusiya Federasiyasının müxtəlif subyektlərində ayrı-ayrı layihələr reallaşdırır. Buna misal olaraq, Heydər Əliyev Fondunun fəaliyyətini göstərə bilərik” - deyən Vüqar Rəhimzadə əlavə edib ki, məhz Heydər Əliyev Fondu tərəfindən Rusiyanın müxtəlif regionlarında bir sıra layihələr uğurla həyata keçirilib: “Belə ki, Həştərxanda 11 nömrəli orta məktəbin yenidən qurulması işləri aparılıb, ulu öndər Heydər Əliyevə abidə ucaldılıb, Onun adını daşıyan park açılıb, “Meçta” Uşaq-Əyləncə Şəhərciyi yaradılıb, Azərbaycan-Rusiya dostluğunun rəmzi olan piyada körpüsü istifadəyə verilib, eyni zamanda, müqəddəs mələksima Knyaz Vladimirə abidə ucaldılıb. Hazırda Heydər Əliyev adına Məktəbin yaxınlığında uşaq bağçası inşa edilir. Əlbəttə ki, həştərxanlılar da bakılılara öz hədiyyələrini veriblər - Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin Azərbaycana səfəri zamanı “Bakı-Həştərxan” Parkının açılışı olub.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə qəhrəman şəhər Volqoqradda daha bir layihə həyata keçirilmiş - “Volqoqrad-Bakı” Dostluq Parkı salınıb, bu park qısa müddətdə şəhər sakinlərinin sevimli istirahət yerlərindən birinə çevrilib. Parkda ümummilli lider Heydər Əliyevin barelyefi, habelə, xatirə abidələri qoyulub, bu abidələrin üzərində Stalinqrad döyüşünün qəhrəmanlarının, o cümlədən, Azərbaycanın görkəmli oğulları - iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun və Sovet İttifaqı Qəhrəmanı mayor Xıdır Mustafayevin adları əbədiləşdirilib.

Xüsusi olaraq, qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən layihələrdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva çox böyük rol oynayıb. O, Rusiyanın Azərbaycan diasporunun nümayəndələrini cəlb etməklə, xalqlarımız arasında mədəni və dostluq əlaqələrinin möhkəmlənməsi üzrə böyük iş aparır”. Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, bu gün Azərbaycanla Rusiya arasında münasibətlər bütün sahələr üzrə uğurla inkişaf edir: “Hər iki ölkənin rəsmilərinin verdiyi bəyanatlardan da anlaşılır ki, qarşıdakı illər üçün çox maraqlı ideyalar və layihələr mövcuddur. Bu mənada, Azərbaycan və Rusiya müxtəlif sahələrdə imkanlardan və potensialından istifadə etməklə regional səviyyədə əməkdaşlığı bundan sonra da fəal inkişaf etdirəcək”.

## Müdafiə Nazirliyi: Azərbaycan əsgərinin xofu düşməni daim qorxu içində saxlayır

Ermənistan tərəfinin guya Azərbaycan Ordusu bölmələrinin cəbhənin Ağdərə istiqamətində təxribat törətmək cəhdi barədə yaydığı məlumat yalandır, əsası yoxdur və dezinformasiya xarakteri daşıyır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən sorğusuna cavab olaraq bildirilib ki, görünür son zamanlar cəbhə xəttində mövcud sabit vəziyyət Ermənistanın hərbi-siyasi rəhbərliyini qane etmir və bu cür məlumatları yaymaqla erməni xalqının diqqətini öz ölkəsində mövcud olan problemlərdən yayındırmağa çalışır. Digər tərəfdən isə həmişə olduğu kimi Azərbaycan əsgərinin xofu düşməni daim qorxu içində saxlayır.

# Xəyanətkar müxalifətin "ən axırıncı yolu"

## *Yaxud Əli Kərimli necə ifşa olundu?*

***Eks-prezident Əbülfəz Elçibəyə qarşı xəyanətkar əməlləri ilə tarixdə qalan, xalq hərəkatında xarici qüvvələrlə işbirliyində ittiham olunan, müxalifət adı altında pərdələnərək bəlli xarici təşkilatların iş icraçısı olan Əli Kərimli haqqında daha dəhşətli faktlar əldə edilib. SİA-nın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, Əli Kərimlinin trol dəstəsinin qəzetlərdə, internet resurslarında, ən sonda isə sosial şəbəkələrdə apardıqları həqiqətdən uzaq, daha çox onun yalanlarını ört-basdır etməyə hesablanmış təbliğat metodları AXCP sədrinin təhdid və qorxu dolu daxili dünyasının daha tez ifşa olunmasına mane olub.***

Amma onun ən böyük gerçəyi yalan və hiylə üzərində formalaşır. Buna görə, tez-tez haqqında olan gerçəkləri gözdən itirməyə çalışır. Daha doğrusu, apardığı analizlərində həqiqətlərin qəlibinə öz gerçəklərini doldurur. Bu gerçəkləri qorumaq üçün əl atmadığı variant, üz tutmadığı yol yoxdur. Hətta Ə.Kərimli el arasında deyildiyi kimi "ən axırıncı yoldan" da istifadə etməkdən belə çəkinmir.

O, heç vaxt özündən başqasını anlamayıb. Çatmaq istədiyi məqsədləri uğrunda rahatlıqla ən yaxın adamını belə əzməyə hazırdır. Hər kəsə məlumdur ki, Əli Kərimli özünü "qəhrəman" etmək, "lider" kimi insanlara sırımaq üçün bütün variantlardan istifadə edir. Gah yalandan başına sarğı vurur, gah da qarnını tutur. Bununla da siyasi xal qazanmağa çalışır. Ə.Kərimlinin bu oyunları onun ətrafında olan digər insanları da cana doyurub. Nəticədə müxalif düşərgəsində yeni gərginlik yaranıb.

Redaksiyamızın əldə etdiyi məlumata görə vaxtaşırı ayrı-ayrı budaqlara qonan Tofiq Yaqublunun Repressiya və İşgəncələr Əleyhinə Komitəyə rəhbər təyinatı ilə bağlı Komitə üzvləri arasında narazılıqlar baş alıb gedir. Belə ki, Müsavatın siyasi mühacir biznesi böhranından yararlanan Əli Kərimli yenidən Tofiq Yaqubluya "stavka" edir. Bu gün heç kəsə sirr deyil ki, AXCP sədri Əli Kərimlinin xəmiri şantajla yoğrulub və o, partiyada özünə qarşı çıxan istənilən tərəfi hər zaman şantajla hədələyib. "Siyasi fəaliyyəti" xəyanətlərlə, satqınlıqlarla, ikiüzlülüklərlə və bu qəbildən başqa-başqa "məziyyətlər"lə bol olan AXCP sədri Ə.Kərimlinin kimliyi hər zaman Azərbaycan cəmiyyətinə bəlli olub.

### Əli Kərimli Tofiq Yaqublu kartı necə ifşa olundu?

Qeyd etdiyimiz kimi, Ə.Kərimli məqsədlərinə çatmaq üçün hər zaman kimlərisə alət edərək onların arxasında gizlənir. Ə.Kərimlinin artıq "yeni məziyyəti" də üzə çıxıb. Bu dəfə Ə.Kərimlinin oyuncağı Tofiq Yaqublu oldu. Tofiq Yaqublu vasitəsilə "Müsavat" partiyasını ələ keçirmək cəhdi uğursuzluqla nəticələnsə də, yenidən başqa hədəfə hücuma keçdiyinə dair etibarlı mənbələrdən əldə etdiyimiz məlumatlar var. Əli Kərimli əlində alətə çevirdiyi T.Yaqublu vasitəsi ilə Müsavat Partiyasına təsir etmək imkanı əldə edəcəyini düşünürdü.

Xatırladaq ki, son vaxtlar Müsavat başqanı Arif Hacılının miqrant alveri məsələsində ifşasından sonra onun istefası tələb edilir və tələb edənlər arasında Əli Kərimliyə yaxınlıqları ilə seçilən AXCP üzvləri də var. Beləliklə, Tofiq Yaqublu Milli Şuranın sədri seçilərsə, Əli Kərimli Müsavat Partiyasına təsir imkanlarını artırmaqdan ötrü, yəni şəxsi maraqlarını təmin etmək üçün Tofiq Yaqubluya müəyyən vədlər də verib - Arif Hacılını sıxışdırıb onu başqanlıq postuna doğru yönəltmək. Əbəs deyil ki, məlum olaylardan sonra Tofiq Yaqublu Arif Hacılıya qarşı ittihamlar səsləndirməyə başlayıb. Yəni Əli Kərimli hazırda öz məqsədlərini həyata keçirmək üçün Tofiq Taqublunu silah qismində istifadə edir. Daha bir danılmaz həqiqət isə Oqtay Gülalıyevlə bağlıdır. Əli Kərimli hüquq müdafiəçisinin düşdüyü vəziyyətdən kifayət qədər məmnundur. Çünki Tofiq Yaqublu onun üçün Oqtay Gülalıyevi bu məsələdə də əvəzləyə bilər. AXCP sədri kirli planlarını həyata keçirmək üçün necə deyərlər, bir güllə ilə iki dovşan vuracağını düşünür. Lakin bu gedişatla, AXCP sədri anidən özünü "yandıra" bilər...

Məlumata görə, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran dərnəyin üzvü İbrahim İbrahimli Eldəniz Quliyevi, Azərbaycana qarşı informasiya müharibəsi aparan ermənilərin göz bəbəyi sayılan Xədicə İsmayılı xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıqda şübhələndiyini bildirib. Dərnəyin daxilində mövcud olan mənbəmizin bildirdiyinə görə İbrahim İbrahimlinin mövqeyi son dövrlər onun ailə üzvlərini də hiddətləndirib. İbrahimin ailə üzvlərinin "hiddəti" artıq dərnəyin bəzi üzvləri arasında narahatlığa səbəb olub. Hətta İbrahim İbrahimlinin ailə üzvlərinin səhərisi gün onun üzünə dura biləcəyi ilə bağlı fikirlər səsləndirilib.



# Moskvadan Ermənistana diplomatik siqnal

***Rusiya Njdenin qəhrəmanlaşdırılması ilə barışmaq niyyətində deyil. SİA Rusiyaya məxsus fedpress.ru saytına istinadən xəbər verir ki, Moskvadan İrəvana diplomatik siqnal da göndərilib.***



Njdenin qəhrəmanlaşdırılması səbəbindən Rusiya-Ermənistan münasibətləri əhəmiyyətli dərəcədə kəskinləşir. Vermaxt ilə əməkdaşlıq edən Ermənistan milli qəhrəmanı Qaregin Ter-Harutyunyana (Njde) haqq qazandırmaq cəhdləri ilə bağlı qalmaqal Rusiya-Ermənistan münasibətlərinə ciddi təsir edib. Bundan əvvəl Rusiya Federasiyasının Ermənistandakı səlahiyyətli səfiri Sergey Kopırkin bildirmişdi ki, bu gün beynəlxalq kontekstdə tarixi yenidən dəyişmək cəhdləri qeydə alınır. Və ehtimal ki, bu, İrəvanın rəsmi açıqlamaları ilə bağlıdır. Kopırkin, jurnalistlərlə Qaregin Njde mövzusundan danışarkən, bu məsələlərin çox incə olduğunu və bu problemin Rusiya və Ermənistan tarixinə yaxın olduğunu söyləyib.

"Siyasi və beynəlxalq kontekstdə tarixin yenidən yazılmasına, o zaman baş verənləri yenidən dəqiqləşdirməyə cəhdlər edildiyini görürük", deyə Kopırkin bildirib. Kopırkinin siyasi cəhətdən açıqlamalarına baxmayaraq, KİV problemin daha geniş olduğu qənaətindədir. Paşinyanın sözlərinə görə isə, mövzu Moskva ilə İrəvan arasında diplomatik kanallar vasitəsilə müzakirə olunursa, Njdenin vermaxtla əməkdaşlığı Ermənistan və Azərbaycan məsələsidir.

"İndi çox şey deyirlər ki, Qaregin Njde Üçüncü Reyxlə bir növ ünsiyyət qurub", - deyə Ermənistan Baş naziri Njdenin xəyanətinə don geyindirməyə çalışıb. Hətta deyib ki, nə olsun, Vyaçeslav Molotov da Üçüncü Reyxin nümayəndələri ilə ünsiyyət qurub. Birgə komissiya yaradaq və orada baş verənləri araşdıraq. Rusiyada kimsə bu adamları müzakirə edib, yoxsa nədir?", deyə Paşinyan jurnalistlərə verdiyi müsahibədə bildirib və Njdeni Ermənistan uğrunda mübarizə aparan sovet marşalı İvan Baqramyanla müqayisə də edib.

Nəşr qeyd edir ki, bununla belə, həmin vaxtlarda Vermaxtın bir hissəsi olaraq Ermənistanda xüsusi təyinatlı qüvvələrin yaradılmasına kömək edən əsas iştirakçılardan biri də məhz Njde olub. Həmçinin bildirilir ki, əsgərlərin Almaniyada yerləşdiyi və orada 8 aylıq hərbi təlim keçdikləri və təxribatçı işləri öyrəndikləri də məlumdur.

"Hələ Berlində olarkən erməni komitəsində işləyirdim. Bütün ermənilərin Alman geyimləri ilə təchiz edildiklərini və Krıma göndərildiklərini, Simena kəndinə yerləşdirildiklərini bildim. Krımda, onlar təxminən 4 ay qaldılar. Krımda təxribat məktəbinin bütün tələbələri təxribat tapşırıqları almışdılar", deyə sorğu-sual zamanı Njde etiraf edib.

Yeri gəlmişkən, Paşinyanın, nasistlərlə əməkdaşlıq edən həmyerlisini müdafiə etdiyi, Türk işğalına qarşı Njdenin döyüşdüyünü söylədiyi, hətta həmyerlisinin 1918-ci il inqilabi dövründə Sovet İttifaqının tərəfində olmaqla, cəbhədə rəhbərlik etdiyini də yalan olaraq sırıyaraq həmyerlisini aktiv şəkildə təbliğ də etdiyi nəşr tərəfindən vurğulanır.

"Qaregin Njde Vladimir həbsxanasında ölüb. İnanırıq ki, 30-50-ci illərdə mühakimə olunanlar hamısı xalqın düşməni idi?! Bu o demək deyil ki, biz bütün bunları bir həqiqət kimi qəbul etməliyik!"- deyə Paşinyan yenə də həmyerlisinin müdafiəsinə qalxıb.

Nəşr yazır ki, ola bilsin ki, Njde, erməni xalqının milli kimliyinin tanıdılmasına ilk başlamasıyla, Ermənistan üçün hələ də vacib şəxs hesab olunur.

Şəhər dumasının deputatı Aleksey Vinoqradov Armavirdə, Erməni Apostol Kilsəsinin yaxınlığında Njdenin xatirə lövhəsinə qara rəngli boya çəkdikdən sonra qalmaqal kəskin mərhələyə keçib. Nümayəndənin bu hərəkəti Moskvadakı Ermənistan səfirliyinin nümayəndələri tərəfindən tənqid olunub, ancaq deputatın rəyi bəzi rus millət vəkilləri tərəfindən dəstəklənib. Xüsusilə, MDB işləri üzrə müavin Leonid Kalaşnikov Njde xatirə planşetinin əbədi olaraq yoxa çıxması üçün hər cür səy göstərəcəyini vəd edib.

"Mənim üçün, Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə münasibətlər komitəsinə rəhbərlik edən bir şəxs üçün Qaregin Njdenin şərəfinə qoyulmuş xatirə lövhəsi qırmızı əsgiyə bənzəyir", deyə Kalaşnikov bildirib.

Bu gün Rusiyanın bu məsələdəki mövqeyi olduqca sərtdir. Rusiya Xarici İşlər Nazirliyinin 2019-cu il üçün hesabatında göstərilir ki, Ermənistan Njde kimi bir siyasi xadimin xatirəsini əbədiləşdirmək üçün addımlar atıbdır. Sənəd BMT qətnaməsinə istinad edir və bildirilir ki, nədənsə indi ermənilər nasistlərlə əməkdaşlıq edən hər kəsi inadla milli qəhrəman olaraq ucaltmağa çalışır.

Smolenskaya Meydanında hesab edirlər ki, Rusiya Federasiyası və bizimlə həmfikir xalqımız, bunun düzgün olmadığına, səhv addım olduğuna əmindir. Kopırkinin açıqlamasına əsasən, Rusiya atrıq Njde mövzusunu diqqətdən kənarda qoymur.

***İnam Hacıyev***

# Bakının Baş planı strateji iri layihələr üzrə qurulacaq



Ötən müddətdə Bakı şəhərinin Baş planı ilə bağlı müzakirələr aparılıb və paytaxtın konsepsiyası nəzərdən keçirilib. AZƏRTAC xəbər verir ki, bu barədə noyabrın 27-də Bakı şəhərinin Baş planı üzrə yanaşmaların müzakirəsinə həsr edilən Strateji sessiyada Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Anar Quliyev deyib. O qeyd edib ki, paytaxtın Baş planı strateji iri layihələr üzrə qurulacaq. Bu istiqamətdə isə artıq bir sıra qurumlar tərəfindən çoxlu sayda təkliflər irəli sürülüb. İndiyədək Baş planla bağlı 59 layihə təklif edilib və 70 fərdi görüş keçirilib.

# Azərbaycanda sosial-iqtisadi siyasətin etibarlı əsası formalaşıb

## *Əldə olunan uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu bir daha göstərir*

***Ölkəmizdə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması dövlətin qarşısında duran strateji vəzifələrdəndir. Tam qətiyyətlə demək olar ki, dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Hər il dövlət büdcəsi artırılmaqla yanaşı, sosial müavinətlərin, aztəminatlı ailələrə verilən ünvanlı sosial yardımların, əmək haqlarının, şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının müavinətlərinin artırılması barədə qərarlar verilir.***

Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin apardığı siyasətin xalqın firavan yaşamasına, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə hesablanıb. Söz yox ki, bu uğurlara gərgin əmək, fasiləsiz zəhmət, müdrik siyasət nəticəsində nail olunub. Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldiyi zaman respublika həyatının bütün sahələrində tənəzzül hökm sürürdü. Ancaq Ulu Öndərin parlaq zəkası, yüksək dövlətçilik bacarığı və uzaqgörən siyasəti sayəsində tərəqqiyə doğru ciddi dönüşə nail olundu. Həyata keçirilən düzgün və məqsədyönlü siyasət nəticəsində respublika iqtisadiyyatının inkişafı, yeni strateji əhəmiyyətli müəssisələrin yaradılması, sənaye və kənd təsərrüfatının inkişafı, kadr potensialının formalaşdırılması istiqamətlərində məqsədyönlü tədbirlər həyata keçirildi, əhalinin rifahının təminatı, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əməli addımlar atıldı. Bu siyasətin dönməzliyi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın çağırışı ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlişindən sonra da çoxşaxəli şəkildə davam etdirildi. Yenidən respublika rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəni bütün təhlükələrdən xilas edərək, onu böyük inkişaf yoluna çıxarmış, eyni zamanda, mühüm sosial-müdafiə tədbirlərinin təməlini qoymuşdur. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan iqtisadi sahədə böyük potensiala malikdir. Biz bu sahədə bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunun üçün lazımi tədbirlər görürük. Yəni 70 il sosialist quruluşunda sosial-iqtisadi, siyasi-iqtisadi və siyasi prinsiplər əsasında yaşayan bir respublika, indi müstəqil dövlət kimi, dünyanın inkişaf etmiş ölkələrinin həm ictimai-siyasi, həm də iqtisadi-sosial prinsiplərindən istifadə edərək, öz həyatını özü qurur".

### Azərbaycan yeni iqsadi inkişaf mərhələsində

Ulu Öndər Heydər Əliyev 1994-cü ilin 15 iyun tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman, Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti sənəd imzaladı. İnsanların sosial müdafiəsinin mükəmməl və etibarlı şəkildə təmin olunması üçün hüquqi bazanın daha da möhkəmləndirilməsi istiqamətində 1995-ci ildə Ümummilli Liderin birbaşa müəllifliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiyanın 16-cı maddəsində qeyd olunur ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Ulu Öndər qeyd edirdi ki, "Dünya iqtisadiyyatının inteqrasiya, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəltmək üçün bu, yeganə bir yoldur". 13 iyun 1997-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" qanun pensiya sistemində həmin dövr üçün zəruri hesab edilən bir sıra islahatlara yol açdı. Bununla da, ölkə üzrə pensiyaçıların yarıdan çoxunun pensiyasının məbləği 2,2 dəfə qaldırılmış, eləcə də əlillərin, tənha və ahıl vətəndaşların, sosial pensiyaçılara əlavə müavinətlər müəyyən edilmişdir. Başlıcası isə bu siyasət sonrakı dövrdə də davam etdirilmişdir. 1998-ci ilin avqust ayından şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin pensiyalarının məbləği 2 dəfədən çox artırılmışdır.

### Azərbaycan yeni mərhələdə dünyanın iqtisadi mərkəzinə çevrilir

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti bu gün Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilir. Ölkəmizədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursu hərtərəfli inkişafımızı təmin etmiş, vətəndaşların sosial rifah halı daha da yüksəlmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq tərzdə büruzə verir. Dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafeyini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Artıq Azərbaycan dövləti, hətta G20-yə daxil olan bəzi ölkələrin iqtisadi inkişaf göstəricilərini üstələyib. Bunu dünyanın nüfuzlu beynəlxalq maliyyə institutları da yaydıqları hesabatların da təsdiqləyirlər. "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeni qoruyub-saxlayıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, əldə olunmuş nəticə Azərbaycan üçün tarixi rekorddur. Azərbaycan dünyada ən çox islahat aparan ölkədir. Çünki Azərbaycan hazırda "Doing Business" islahatlarına görə dünyada lider ölkədir və dünyanın top islahatçı ölkəsi statusunda qiymətləndirilib. "Doing Business" islahatı səviyyəsinə görə, Azərbaycan postsovet məkanında ikinci, MDB məkanında birinci ölkədir. Bu islahatlar dövlətimizin başçısının siyasi iradəsi ilə aparılıb. Azərbaycan MDB məkanında ən sürətlə irəliləyən ölkədir. Ölkəmiz "Doing Business" hesabatında 32 pillə irəliləyib. Qazaxıstan 8, Rusiya 4, Belarus 1, Qırğızıstan 7, Ukrayna 5, Özbəkistan 2, Tacikistan isə 3 pillə geriləyib.



Söz yox ki, bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir. Prezidentin son on altı il ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamları, qəbul etdiyi praqmatik qərarları, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin sürətli inkişafına nail olmuş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə və işləkliyinə nail olmuşdur.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Cənab İlham Əliyevin 600 min yeni iş yerinin yaradılacağı barədə vədi də sistemli şəkildə, ardıcıl olaraq ilbəil əhalinin məşğuliyyətinin təmin edilməsinə hesablanmışdı. Aparılan düzgün siyasət nəticəsində, verilən vəd yerinə yetirildi. Son 16 ildə Azərbaycanda 1 milyon 900 min yeni iş yeri açılmışdır ki, bunun da 1 milyon 400 mini daimidir. Reallaşan sosial siyasət nəticəsində, cəmiyyətin əmək qabiliyyətini itirmiş üzvləri üçün etibarlı sosial təminatlar sistemi yaradılıb, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi təmin olunub. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı müvafiq proqram hazırlanaraq həyata keçirilib. Proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun müddəaları öz əksini tapmışdır. Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə şərait yaratmışdır. 2018-ci il prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq, yenidən ölkə Prezidenti seçilən Cənab İlham Əliyevin imzaladığı ilk Fərmanı 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların (bundan sonra - hərbi qulluqçuların) vərəsələrinə 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsi barədə olmuşdur. Artıq Prezidentin imzaladığı Fərmanın icrası başa çatmaqdadır. Ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrin hər birinə 11 min manat ödənilib. Azərbaycan Prezidenti İlham Əliyev dövlətin bu kateqoriyadan olan insanlara daim qayğı göstərdiyini vurğulayaraq deyib: "Dövlətimiz sosial siyasəti uğurla aparır. Görülmüş işlər bunun bariz nümunəsidir. Dövlət həmişə sizin yanınızdadır. Eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün və qaçqın soydaşlarımız var. Onlar da dövlət tərəfindən qayğı ilə əhatə olunurlar. Son illərdə 100-ə yaxın qəsəbə salınıb. Üç yüz minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır... Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir".

Bir sözlə, əminliklə qeyd etmək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər ölkənin dayanıqlı inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir. Bu siyasət isə dəyişməzdirgücü və qüdrəti Azərbaycanımızda əhalinin daha firavan, rahat, təhlükəsiz yaşaması.

***Qismət İsmayılov***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün verilir.*

# Rusiya zəif və süquta uğrayan Ermənistanı diz çökdürəcək - Njdeyə görə!

***Ermənistan rəhbərliyinin faşist əlaltılarını qəhrəman obrazında qələmə vermək siyasəti, necə deyərlər, öz "bəhrəsini" verməkdədir, özü də Rusiya mediasında. Belə ki, Rusiya nəşrləri Ermənistan rəhbərliyinin və şovinizmə qapılmış xalqının bu addımlarını kəskin tənqid etməyə başlayıb. Artıq mütəmadi olaraq, Şimal qonşumuzun ölkənin mətbu orqanlarında bununla bağlı tənqidi materiallar dərc edilməkdədir. Yeri gəlmişkən, hələ 2 il əvvəl Rusiyada artan narazılıqlarla bağlı Ermənistanın "Qolos Armenia" qəzeti narahatçılığını ifadə edən məqalə dərc etmişdi. Mqalədə bildirilirdi ki, ekspertlər" faşist əlaltısı Njdeyə görə Ermənistana təzyiq göstərməyə çalışırlar. Misal kimi "Vestnik Kafkaza" saytı göstərilirdi və xüsusi qeyd edilirdi ki, bu sayt antiermənì mövqedə durub. "Rusiya resursu hər gün antiermənì təbliğatı aparır. Rusiyadakı Ermənistan səfirliyi və digər erməni strukturları hara baxır" deyə məqalədə sual olunub. Daha sonra erməni nəşri xatırladıb ki, Qaregin Njdenin yenidən dirçəldilməsi hakim Respublika Partiyasının ideologiyasının əsasını təşkil edir və partiyanın sədri olan ölkə prezidenti Serj Sarkisyana bu cür təzyiq, çətin ki, xoş gəlsin. Ancaq bu gün Ermənistanda hakimiyyət dəyişikliyinin olmasına rəğmən, Nikol Paşinyan iqtidarı da eyni mövqeni sərgiləyir.***



### "Komsomolskaya Pravda"da Mixail Zabelinin "Yerevanın mərkəzində Hitlerin sovet məhkəməsi tərəfindən məhkum edilmiş əlaltısının heykəli açılıb" sərlövhəli məqaləsi verilmişdi

O da sirr deyil ki, ermənilərin "başbilən" və s. "alimləri" isə, hər vəchlə faşist Njdeni təmizə çıxarmağa çalışırlar. Onların gülünc iddialarına görə, Qaregin Njde alman hakimiyyət orqanları ilə əməkdaşlıq etməyə məcbur olub. "1930-cu illərdə Almaniyada yaşayan ermənilər semit xalqı hesab edilirdilər və biz də yəhudilərin taleyini yaşaya bilərdik. Müharibənin birinci günlərində erməni hərbçilər əsir düşdülər və onları azad etmək, qırğından qurtarmaq əsas məsələ kimi qarşıya qoyuldu. Məhz Njde də, bu səbəbdən, faşistlərlə yaxınlıq etməyə məcbur oldu" deyə saxta erməni tarixçiləri iddia edirlər.

Lakin artıq Rusiya və Qərb mətbuatında ermənilərin bu çirkin siyasətini ifşa edən çoxsaylı materiallar dərc edilməkdədir. Məsələn, bu gün olduğu kimi, hələ 2 il əvvəl "Komsomolskaya Pravda" qəzetinin portalında Azərbaycan politoloqu və millət vəkili Mixail Zabelinin "Yerevanın mərkəzində Hitlerin sovet məhkəməsi tərəfindən məhkum edilmiş əlaltısının heykəli açılıb" sərlövhəli məqaləsi verilmişdi. Müəllif yazıb ki, "mayın 28-də Rusiyada Sərhədçilər Günü qeyd edilib. Bu bayram həm Moskvada, həm də uzaq zastavalarda, o cümlədən, xarici sərhədləri Rusiyanın "yaşıl furajkalı" hərbi qulluqçuları tərəfindən qorunan MDB ölkələrinin sərhədlərində təntənəli şəkildə qeyd olunub. Həmin ölkələr sırasına Ermənistan da daxildir - onun İran və Türkiyə ilə sərhədlərini indiyə qədər rusiyalı sərhədçilər qoruyur. Ermənistanın özündə isə həmin gün ... Hitlerin əlaltısı, hərbi cani, sovet məhkəməsi tərəfindən məhkum olunmuş Qaregin Njdenin heykəlinin açılışı olub".

### Qaregin Njde şəxsən Berlinə gedib, orada fürerə ehtiramını bildirib və bundan sonra general Drastamat Kanayan (Dro) ilə birlikdə "Erməni SS legionu" yaratmağa başlayıb

O da bəllidir ki, Qaregin Njde (əsl adı Qaregin Ter-Arutyunyan) 1886-cı ilin yanvar ayında Azərbaycanın Naxçıvan bölgəsində anadan olub: "O, hələ XX əsrin əvvəlində "inqilabi terror"a sevgisi ilə fərqlənirdi. Sonra "erməni milli ordusu" yaratmaqla məşğul olub, Vedibasarda və doğulduğu Naxçıvanda azərbaycanlılara qarşı amansız etnik təmizləmələr həyata keçirməsi ilə məşhurlaşıb. 1921-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulanda Qaregin Njde Avropaya köçüb, orada artıq otuzuncu illərdə faşizm ideyaları ilə ciddi maraqlanıb və xaricdə yaşayan ermənilər arasında "Seqakron" adlı faşist təşkilatı yaradıb. 1942-ci ildə Qaregin Njde şəxsən Berlinə gedib, orada fürerə ehtiramını bildirib və bundan sonra general Drastamat Kanayan (Dro) ilə birlikdə "Erməni SS legionu" yaratmağa başlayıb, bu legionun komandirinin müavini vəzifəsini tutub. Onun başçılığı ilə on minlərlə insan məhv edilib. Ola bilsin ki, bəzi oxucular bu məqamda fikirləşəcəklər: müəllif ağ eləmir ki? Lakin bu cür nəticələr çıxarmazdan əvvəl, gəlin, faktlarla danışaq. Faktlar isə inandırıcı şəkildə göstərir: Njde hitlerçilərlə əməkdaşlıq edirdi, açıq-aşkar və çox fəal şəkildə.

Şimal qonşumuzun mətbuatı daha nə yazır? SİTAT: "Dronun və Njdenin başçılığı ilə erməni SS-çilər tərəfindən törədilmiş qanlı cinayətlər barədə bu gün də arxivlərdə çoxlu məlumatlar var. Onlar partizanlara qarşı əməliyyatlar keçirib, yəhudiləri və qaraçıları məhv ediblər. 809-cu erməni piyada batalyonu Ukraynada və Polşada o qədər fəallıq göstərib ki, Vermaxtın Ukraynadakı komandanı Gitsinger və Şərq hissələrinin komandanı general-mayor İgen bu batalyonu tərifləyib. Erməni SS batalyonunun tərkibinə daxil olan "Dromedar" zonderkomandası Şimali Qafqaz cəbhəsi qoşunlarının arxasında kəşfiyyat-təxribat tədbirləri həyata keçirir, fürsət düşdükcə, "untermenş"ləri məhv edirdi. Bir sözlə, Qaregin Njdenin hitlerçi hakimiyyətlə münasibətləri Banderanın və Şuxeviçin münasibətlərindən daha yaxın olub. Sözün qısası, bu hadisələrin miqyası "erməni-azərbaycanlı münasibətləri"nin çərçivəsindən kənara çıxır".

Bütün bunlar isə, bir daha sübut edir ki, Ermənistanda faşizm ideologiyası hökm sürür və artıq Rusiya tərəfi buna biganə qala bilməz. Artıq Rusiya-Ermənistan münasibətlərinə qədər təsir edən bu fakt da sübut edir ki, əgər qaniçən və sadist Njdenin abidəsi ortadan götürülməzsə, güclü Rusiya zəif və süquta uğrayan Ermənistanı diz çökdürüb, məhv etmək məcburiyyətində qalacaq.

***Rövşən NURƏDDİNOĞLU***

## Saxtakarlığa görə ermənilər yenə cərimələniblər



Rus arağının saxtalaşdırılmasına görə erməni şirkətinə milyonlarla cərimə tətbiq edilib. SİA Ermənistana məxsus rusarminfo.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Təbii Sərvətləri Müdafiə Dövlət Komitəsindən məlumat verilib. Məlumatda qeyd oluur ki, bu il Ermənistanın İqtisadi Rəqabəti Müdafiə Dövlət Komissiyası, məşhur Rusiya istehsalı olan araq markalarına bənzər ticarət markaları ilə araq istehsalına görə Alco idxal-ixrac şirkətini iki dəfə 32.414 milyon (68 min dollar) cərimə edib. Komitədən verilən məlumata görə, Omskvinprom-un müəllif hüquqları pozuntularına görə, xüsusən Beş Göl və Ağ Birch araqına çox bənzər məhsulların istehsalı və satışı üçün 16207.000 dram (34 min dollar) məbləğində son cərimə tətbiq edilib. Xatırladaq ki, Ermənistan mediasında yer alan məlumatlara görə, Alco İdxal-İxrac Ermənistan parlamentinin keçmiş üzvü, iş adamı Samvel Aleksanyana məxsusdur.

## Ermənistanda etiraz aksiyaları yenidən başlayıb?

İrəvan Dövlət Universitetinin tələbələrinin tətili davam edir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, universitetin erməni filologiyası və tarixi fakültələrinin tələbələri bu gün yenidən etiraz aksiyalarına başlayıblar. Məlumatda qeyd olunur ki, universitetin tələbələri rektor vəzifəsini icra edən Qeqam Qevorqyanın kabineti önünə toplaşaraq onunla görüş tələb ediblər.

"Rektorla görüşməyi səbirsizliklə gözləyirik. Ümid edirik ki, Elmi Şuranın niyə "erməni dili", "erməni ədəbiyyatı" və "Ermənistan tarixi" mövzularını müzakirə etməməsini izah edəcəkdir. Dünən bu barədə tələbimizə cavab olaraq, heç bir şey haqqında danışmayan son dərəcə deklarativ məqamları əks etdirən bir məktub aldıq. Elmi Şuranın fövqəladə iclasının niyə çağırılmadığını başa düşmək istəyirik", deyə etirazçı tələbələr bildiriblər. Rektor sizi qəbul etməsə, növbəti addımlarınız nə olacaq sualına etirazçılar, etiraz aksiyalarını davam etdirəcəklər, cavabı veriblər.

## Rusiyadan Ermənistana qadağalar artır



***Moskvadan Ermənistana 120 kiloqramdan çox kolbasa ixracına icazə verilməyib. SİA Ermənistana məxsus rusarminfo.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Federal Baytarlıq və Fitosanitar Nəzarətinin (Rosselxoznadzor) mətbuat xidmətindən məlumat verilib.***

Məlumatda qeyd olunur ki, Federal Baytarlıq və Fitosanitar Nəzarəti Xidməti (Rosselxoznadzor) Moskvadan Ermənistana 124 kq kolbasa ixracını qadağan edib. İdarənin mətbuat xidmətindən verilən məlumata görə, şirkət Vnukovo hava limanındakı müvəqqəti saxlama anbarına, Ermənistana göndərilməsi üçün nəzərdə tutulmuş kolbasa məmulatları yığılıb. Qeyd olunur ki, kolbasa məmulatlarının təyyarələrin göyərtələrinə yüklənməsi qadağan edilib.

# Əli Kərimlinin separatçılara növbəti sübutu

## Yaxud AXCP sədrinə 350 min avro haradan daxil olub?



***Dəfələrlə sübuta yetirilib ki, AXCP sədri Əli Kərimli istər rəhbərlik etdiyi partiyası, istərsə də inhisarında saxladığı "Milli Şura" vasitəsi ilə istənilən anti-Azərbaycan xarakterli qüvvələrlə iş birliyinə girib, dövlətçilik əleyhinə işlər aparmaqla məşğuldur. Onun özünün də ifadə etdiyi kimi, şəxsi dividentlər qazanmaqdan ötrü, hətta şeytanla da əməkdaşlığa hazır ola biləcəyini bildirən Ə.Kərimlinin növbəti ifşası bu amili kifayət qədər sübuta yetirib. Əldə etdiyimiz informasiyaya görə, hazırda Kərimlinin monopoliyası daxilindəki "Milli Şura"ya vətən xaini kimi tanınan insanlar da qəbul olunmaqdadır ki, onların arasında açıq şəkildə separatçılıqla məşğul olanların da olması şübhəsizdir.***

### Ataxan Əbilov kimdir?

Misal üçün, bu günlərdə Ə.Kərimli və onun ətrafının Azərbaycanın dövlətçilik maraqlarına qarşı çıxış edən, eləcə də, Avropadan ölkəmiz əleyhinə fəaliyyət göstərən adamlarla növbəti bağlantıları və iş birlikləri bəlli olub. Belə ki, hazırda "Milli Şura"nın Avropada əsas dayaqlarından biri hesab edilən və Hollandiyada yaşayan, o cümlədən, vətən xaini kimi tanınan Ataxan Əbilov həmin dayaqlardan biridir. Daha doğrusu, Ə.Kərimlinin dostu və tələbə yoldaşı olan bu şəxs Hollandiyada "Oyan" adında hərəkat yaradıb və bu hərəkat vasitəsilə Avropa fondlarından 350 min avro alaraq, Azərbaycan əleyhinə təbliğat aparır. Əlbəttə ki, əldə edilən həmin məbləğin böyük hissəsi, bilavasitə Ə.Kərimliyə ötürülür.

QEYD: Ataxan Əbilov 29 iyun 1965-ci ildə Masallı rayonunun Kubin kəndində anadan olub. Hazırda Niderland Krallığında siyasi mühacir qismində yaşayır. O, Azərbaycandan qaçdıqdan sonra, bir müddət Moskva şəhərində yaşayıb və 14 yanvar 2009-cu ildən Niderland Krallığına - Hollandiyaya mühacirət edib və "siyasi mühacir" statusu alıb. Əbilov hazırda Hollandiyanın Amsterdam şəhərində yaşayır. Eyni şəhərdə yaşayan Ə.Hümbətovun ailəsi, eləcə də, digər separatçı "siyasi mühacirlərlə" yaxın əlaqələrə malikdir.

### Əlikram Hümbətovun "sağ əli", Əli Kərimlinin yaxın adamı!

Bəs A.Əbilovun fəaliyyəti daha öncə hansı "əsaslara" söykənib və necə olub ki, o, vətən xaini damğasını daşıyır? Əldə etdiyimiz digər informasiyaya görə, A.Əbilov 1992-ci ildə - AXC-Müsavat iqtidarı dönəmində dövlətçiliyimizin və müstəqilliyimizin əsaslarının zəif olduğu vaxtlarda talış separatçıları tərəfindən, qeyri-qanuni olaraq, təsis edilmiş "Azərbaycan Xalqlarının Bərabərliyi Partiyası"nın yaradıcılarından və fəal üzvlərindən olub. Onun bu fəaliyyəti ifşa edildikdən bir il sonra - 1993-cü ildə, o, hüquq müəllimi işlədiyi BDU-dan qovulub. Həmçinin, A.Əbilov Azərbaycanın ərazi bütövlüyünü xaincəsinə parçalamaga çalışan Əlikram Hümbətov tərəfindən yaradılan, tanınmayan qondarma "Talış- Muğan Respublikası"nın dəstəkçilərindən, habelə, "konstitusiya komissiyası"nın sədri olub. Əbilov, eyni zamanda, Hümmətovun müavini olub. Bu gün Ə.Hümbətov Ermənistanda qondarma "TMR"in "prezidenti" kimi Azərbaycan əleyhinə fəaliyyət göstərir və maraqlısı da budur ki, onunla birgə separatçılıq edən A.Əbilov Hollandiyadan Ə.Kərimliyə pul göndərərək, Azərbaycan əleyhinə fəaliyyətdə AXCP sədri tərəfindən aşkar siyasi dəstək alır!

Səhih və inkarolunmaz məlumata görə, Əbilov, eyni zamanda, xarici xüsusi xidmət orqanları tərəfindən ölkəmizə qarşı fəaliyyət baxımından "verbovka" edilərək, zaman-zaman müxtəlif məbləğlərdə maliyyə alaraq, onların bir hissəsini "Milli Şura"ya transfer edib. Deməki, digər tərəfdən, belə qənaətə gəlmək olar ki, Ə.Kərimli separatçılarla sıx əməkdaşlıq edirsə, bu gün onun ətrafında olanlar - Cəmil Həsənli, Gültəkin Hacıbəyli və s. insanlar da separatçıların buyruq qullarına və nökərlərinə çevrilirlər.

### Əli Kərimli separatçının 50 yaşını, xüsusilə təbrik edib!

Yeri gəlmişkən, digər fakt da şok doğurucudur. Məsələn, ötən il onun 50 illiyi ilə bağlı Ə.Kərimli bir təbrik yazmaqla yanaşı, bunu da öz mətbu orqanı sayılan "Azadlıq" qəzetində və eyni adda fəaliyyət göstərən sayta işıqlandırıb (???!!!-R.N.). Hətta onun bu addımı bir sıra millətçi baxışında olan cəbhəçilərin etirazlarına səbəb olmuşdu. Həmin ərəfələrdə AXCP-dən və "Milli Şura"dan olan istefalar da, bilavasitə bu faktla əlaqələndirilmişdi.

Daha bir xatırlatmanı etmək yerinə düşərdi. Həmin fakt isə tükürpədicidir. Bu gün Ə.Kərimlinin təbrik məktubu ünvanladığı A.Əbilovun ən yaxın adamı hesab edilən, üstəlik, AXCP və "Milli Şura" üzvü olan Vüqar Niftəliyev adlı şərəfini satmış vətən xaini bir neçə ətrafı ilə Türkiyə və Azərbaycan bayraqlarını ayaqları altına ataraq, şəkil çəkdirib "facebook"da yayımlamışdı.

Beləliklə, fakt budur ki, ortada danılmaz sübutlar var və söz xalqın olmaqla yanaşı, həm də hüquq-mühafizə orqanlarınındır. Çünki dövlətçiliyimiz və milli maraqlarımız əleyhinə fəaliyyət göstərən istənilən şəxslər, bilavasitə Azərbaycan qanunları qarşısında ən sərt cəzalarını almağa layiqdirlər.

**Rövşən NURƏDDİNOĞLU**

# Elşad Hacıyev: İqbal Ağazadənin yaşadığı ünvanın elektrik naqilinə müdaxilə edən şəxs ruhi-əsəb xəstəxanasında daimi qeydiyyatdadır

Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Cinayət Axtarış İdarəsi, Xətai Rayon Polis İdarəsi və 37-ci Polis Şöbəsinin əməkdaşları İqbal Ağazadənin yaşadığı ünvanın elektrik naqilinə müdaxilə edən şəxslə bağlı müvafiq tədbirlər həyata keçiriblər. BŞBPİ-nin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a bildirib ki, noyabrın 26-da saat 00:42 radələrində Bakı şəhəri Xətai rayonunda İ.Ağazadənin yaşadığı evin elektrik naqili kəsilib. İ.Ağazadə elektrik naqilini kəsən 1986-cı il təvəllüdlü, Xətai rayonu, Həzi Aslanov küçəsində yaşayan Pes Traykov Vladislav Yuriyeviçi özü və digər şəxslərlə izləyib saxlayaraq, Xətai Rayon Polis İdarəsinin 37-ci polis şöbəsinə təhvil veriblər. İ.Ağazadəyə qarşı təxribat edilməsi və digər halların tam və hərtərəfli araşdırılması zamanı müəyyənləşdirilib ki, Pes Traykov Vladislav Yuriyeviç 2013-cü ildən ruhi-əsəb xəstəxanasında daimi qeydiyyatdadır.

Həmin şəxs ilkin izahatında bildirib ki, İ.Ağazadənin yaşadığı ev əvvəllər onun tanıdığı şəxsə məxsus olub və sonradan satılıb. Həmin evdə başqa şəxsin yaşaması onu narahat edir. Faktla bağlı Xətai Rayon Polis İdarəsinin 37-ci polis şöbəsində təhqiqat davam etdirilir.

# Macar nəşri Azərbaycanın xeyriyyə yarmarkasında iştirakından yazıb

**AZƏRTAC**-ın artıq xəbər verdiyi kimi, bazar günü Budapeşt şəhərində Macarıstanın birinci xanımı Anita Orbanın himayəsi ilə keçirilən ənənəvi illik xeyriyyə yarmarkası baş tutub. Ötən illərdə olduğu kimi, bu il də yarmarkada iştirak edən ölkəmizin Macarıstandakı səfirliyi qonaqlara milli şirniyyatlar, xalq sənətkarlığı məhsulları, Azərbaycan xalqının çoxəsrlik mədəniyyəti və ölkəmizin uğurları haqqında nəşrlər təqdim edib. "Daily News" nəşrinin bugünkü sayında bu möhtəşəm tədbirdən və Azərbaycanın iştirakından bəhs edən material dərc olunub. Burada yerləşdirilmiş fotoşəkillərdə səhnədə xalq təranələrini ifa edən Ramil və Kamil Şükürov qardaşlarının çıxışı əks olunub.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Dağıdıcılar Əli İnsanov "izində" - korrupsioner "sevgisi" haradan qaynaqlanır?

***Dağıdıcı müxalifətin son günlər sabiq səhiyyə naziri Əli İnsanov amilinə maraq göstərmələri əbəs yerə deyil. Xüsusilə, AXCP və "Milli Şura" kimi qurumların və onların təbliğat ruporu olan sosial şəbəkələrin İnsanov ətrafında var-gəl etmələri, onun adını gündəmə çıxarmalarına nail olması, əslində, bir çox mətləblərdən xəbər verməkdədir. Halbuki korrupsioner və çörəyi dizinin üzərində olan İnsanovun səhiyyə naziri olduğu vaxtlar onun dövlətdən çapıb-taladığı milyonları barədə yazanlar, deməki olar ki, hər gün səhifəsində palaz-palaz "yıxıb-sürüyən" yazılar verənlər də, bu gün onun təbliğatını aparan tərəflərdir. Bu zaman, istər-istəməz, belə bir sual yaranır ki, bir insan məlum cinayətlərinə görə həbsə düşdüyü müddətə qədər müxalifətin ən qatı düşməniydisə, nədən həbs olunan kimi onların dostuna çevrildi?***

Əslində, bu sualın özündə sıralama cavablar mövcuddur. Məsələn, bu gün onun "HƏP"imiz müxalifətçiyik" kontekstində "lider" kimi "birləşdirici" rol oynayacağını deyənlər, əslində, puluna, varına-dövlətinə göz dikənlər toplumudurlar. Yəqin ki, bu ünsürün oğurladığı bir neçə yüz min haqq-hesabı var... Yəni siyasi baxışlarını 100 dollara dəyişənlər üçün, hətta onların nəsil-nəcabətlərini söyüb ciblərinə pul qoyanlar da liderə çevrilə bilər. Fakt da budur ki, bu gün əqidəsiz insanlar kimi tanınan pulbazlar indi də Əli İnsanovun qoltuğunun altına qarpız verməklə, ondan nə isə qopara biləcəklərini düşünürlər. Lakin görək, müxalifətin özündə bu barədə necə düşünürlər?

Məsələn, Klassik Xalq Cəbhəsi Partiyasının sədr Mirmahmud Mirəlioğlu sabiq nazir hələ həbsdə olarkən, maraqlı fikir söyləmişdi. O demişdi ki, uzun müddət həbsdə olan İnsanovun "müxalifətin əsas ümid yeri" kimi təqdim edilməsinə səbəb varidatıdır: "Onun mövqeyini bölüşənlər, dəstək verənlər, varidatına göz dikib, gələcəkdə bölüşdürmək istəyənlər mövcuddur. Amma Əli İnsanovun siyasi partiyaları birləşdirəcək şansının olduğunu düşünmürəm. Zamanın nə göstərəcəyi başqa məsələdir. Bizim partiyamız kiminsə ətrafında ola bilməz..."

Son günlər mediada tez-tez görünməyə başlayan Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev də, bir zaman demişdi ki, müxalifətin Əli İnsanovun ətrafında birləşmək məsələsi reallıqdan uzaq olan bir məsələdir: "Bu gün mən özüm çalışıram ki, kimlərsə ətrafımda birləşsinlər: "Bu günə qədər buraxılan insanların hansı nə edib ki, Ə.İnsanov da nəsə etsin?.. Əli İnsanov məsələsi ehtiyatlı məsələdir".

Göründüyü kimi, bu gün İnsanov ətrafında növbəti süni lider obrazı yaradanlar heç də onun "qara qaşına", "qara gözünə" aşiq olmayıblar. Aşiq olduqları isə, onun vaxtilə çapıb-taladığı pullarıdır. Ancaq inanmaq olmaz ki, Ə.İnsanov azadlığa çıxandan sonra bu gün ona "gəl-gəl" deyənlərə qoşulsun. O, artıq qocalıb və əldən düşüb, hətta "HƏP"i yaratsa belə, buna tab gətirə bilməz. Yəqin ki, eks-nazir indi "müxalifət liderləri" olmaqdansa, öz sağlamlığının dərdini çəkməkdədir.

Əli Kərimli və s. güdənçilər ilə onun ətrafı isə, sadəcə, utopiyaya qapılaraq, yeni xəyallara dalmağa başlayıblar. Axı "pul meşoku" kimi gördükləri Ə.İnsanov azadlığa çıxıb və "partiya" yaradıb...

# Lələtəpədə dalğalanan üçrəngli bayrağımızın Xankəndidə dalğalanacağı gün uzaqda deyil

*Bu, reallıqdır ki, Azərbaycanın qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Dağlıq Qarabağın o zamankı hakim zümrənin səriştəsizliyi səbəbindən, Ermənistanın himayədarlarının hərbi və siyasi dəstəyi ilə işğal edilməsi ölkə əhalisində mənəvi-psixoloji sarsıntı yaratmışdır. 1990-1993-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində, Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin, Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu.*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində, 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb. Cəbhədə hökm sürən acınacaqlı vəziyyət xalqın sabaha olan ümidlərini də alt-üst edirdi.

### Ulu Öndərin hakimiyyətə gəlişi ilə cəbhədə ciddi dönüşə nail olundu

Belə bir ağır, böhranlı durumda xalq üzünü dahi oğlu Ulu Öndərimiz Heydər Əliyevə tutdu. Xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qısa müddətdə müdrik və uzaqgörən hərbi-diplomatik siyasəti ilə Dağlıq Qarabağda ciddi dönüşə nail olundu. 1994-cü il yanvarın 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi "Horadiz əməliyyatı" nəticəsində 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Tarixi "Horadiz əməliyyatı" ilə Azərbaycan Ordusunun qələbə əzmi özünə qayıtdı. Məhz bundan sonra 12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk Konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Beləliklə, üç həmsədr ölkə -Rusiya, ABŞ və Fransa 1994-cü ildən bu günə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair vasitəçilik prosesini həyata keçirir. Ancaq görünən odur ki, həmsədrlər üzərlərinə götürdükləri öhdəliklərə uyğun fəaliyyətlərini qurmurlar. Bəzən ikili standartlardan çıxış edir və münaqişənin həllində status-kvonun saxlanmasına cəhd göstərirlər. Elə bu yaxınlarda Ermənistanda səfərdə olarkən, Rusiyanın xarici işlər naziri Setgey Lavrovun erməni maraqlarına xidmət edən fikirlər səsləndirməsi, qeyd etdiyimiz kimi, münaqişəsinin sülh yolu ilə həllində həmsədr ölkələrin üzərlərinə götürdükləri vasitəçilik prinsiplərinə və ruhuna ziddir.

### "Rusiyanın vasitəçiliyi də bizdə müəyyən qədər şübhələr yaradır"

Politoloq Elxan Şahinoğlu "Səs" qəzetinə açıqlamasında Sergey Lavrovun Ermənistanda səsləndirdiyi fikirlərə əsasən, bildirib ki, Rusiyanın vasitəçiliyi bizdə müəyyən qədər şübhələr yaradır: "Ermənistana rəsmi səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrovun erməni maraqlarına uyğun açıqlaması yəqin onun şəxsi fikri deyil. Görünür, Moskvada, çox təəssüf ki, belə düşünənlər az deyil. Faktiki Lavrov Azərbaycanın işğal edilən ərazisi olan Dağlıq Qarabağın maraqlarının nəzərə alınmasını vurğuladı. Amerikalı diplomatlar və həmsədrlər dəfələrlə bildiriblər ki, münaqişənin həlli mərhələsində Dağlıq Qarabağ ətrafındakı, ən azı, 5 rayon boşaldılmalıdır. Bu sözü isə heç vaxt Sergey Lavrovdan eşitməmişik. Belə olan halda, Rusiyanın vasitəçiliyi də bizdə müəyyən qədər şübhələr yaradır". E.Şahinoğlu Rusiyanın bəzi şəxslərinində Lavrov kimi düşünüb, addımlar atdıqlarını söyləyb. Misal olaraq 2019-cu ilin oktyabrında Rusiya Dövlət Dumasının komitəsinin sədr müavini Zatulinin qanunsuz olaraq Dağlıq Qarabağa səfər etməsini göstərib: "Zatulin bununla kifayətlənməyib, eyni zamanda, Rusiya televiziya kanalına müsahibəsində deyir ki, "onsuz da Dağlıq Qarabağ müstəqildir, uzaqbaşı 5 rayonu Azərbaycana qaytara bilərlər" yəni onun ağzının üstündən heç kəs vurmur. Bir sözlə, Rusiyanın vasitəçiliyi bizdə haqlı suallar yaradır".

1994-cü ildə tərəflər arasında atəşkəs elan edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini mütəmadi pozmaqda davam ediblər. Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı ilin aprel ayında baş verdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qaldıqda, ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Atəşkəs elan olunduqdan sonra ilk dəfə baş verən bu ən irihəcmli döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi.

Erməni hücumunun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirləri həyata keçirildi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində mövqelər düşməndən azad olundu. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin, əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Düşmənin əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı döyüşçülərimizin şücaəti sayəsində baş tutmadı. Güclü, qüdrətli ordumuz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbələr endirildi.

### Aprel zəfəri ilə erməni hərbi birləşmələrinin məhv edilməsi



Döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı. Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qruplarımız tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafındakı, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Erməni silahlı qüvvələri bu döyüşlərdə 500-dən artıq hərbi qulluqçu itirdi, 1200-ə yaxın əsgər və zabiti yaralandı, çoxsaylı zirehli texnika, artilleriya qurğusu itkilərinə məruz qaldı. İşğalçı ölkənin Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıldı. Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində, Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də, Seysulan məntəqəsini azad etməsi, Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" yüksəkliyinə nəzarəti ələ keçirməsi böyük strateji qələbə kimi qiymətləndirilir. Çünki "Lələtəpə" yüksəkliyinin düşməndən alınmasından sonra ordumuz yaxın əraziləri, Arazboyu cənub bölgəsini nəzarət altına götürmüş oldu. Aprel döyüşləri hərbi-strateji nöqteyi-nəzərdən böyük üstünlüklər verməklə yanaşı, həm də Azərbaycanın çox mühüm psixoloji qələbənin qazanmasında önəmli rol oynadı. Aprel döyüşləri zamanı ordumuz düşmənə sarsıdıcı zərbələr endirməklə, dünyaya nümayiş etdirdi ki, Azərbaycan işğal altında olan torpaqları azad etmək potensialına malik ölkədir. Aprel döyüşləri həm də ermənilərin ideoloji əsaslarını da heçə endirdi. Həmin döyüşlər, demək olar ki, ermənilərin ideoloji əsaslarını dağıtdı. Ötən iki il ərzində, Ermənistan cəmiyyəti sarsıntı və təşviş içindədir. Artıq vəziyyətə daha praqmatik baxımdan yanaşan qüvvələr açıq-aydın bildirirlər ki, əgər Azərbaycan ilə münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur.

### Hərbi sahədə olduğu kimi, diplomatik sahədə də işğalçı Ermənistan məğlub olur

Aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində işğalçı Ermənistan, hərbi sahədə olduğu kimi, diplomatik sahədə də dünya siyasi arenada sıradan çıxarılmaqdadır. Təbii ki, bütün bu siyasi-diplomatik uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş, məqsədyönlü müdrik siyasət aparmasının nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı, Paşinyanın səsləndirdiyi "Qarabağ Ermənistandır" ifadəsinin yalan olduğunu faktlarla və sübutlarla dünyaya nümayiş etdirdi. Bildirdi ki, Dağlıq Qarabağı statusu 1921-ci ildə Qafqaz bürosunun qərarı ilə "Azərbaycanın tərkibində qalsın" kimi müəyyən edilib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında qətiyyətlə bəyan edib ki, Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, siyasi, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olub və ora indi də Azərbaycanındır. Həmin fikri Prezident tarixə düşən dəqiqliklə ifadə edib: "Qarabağ Azərbaycandır və nida işarəsi" Erməni mətbuatı bu fikrin Nikol Paşinyanın "nöqtəsini əzib keçdiyini" yazıb.

Biz sözlə, Azərbaycanın qalibiyyət bayrağı dünya siyasi səhnəsində daha geniş əraziləri və sərhədləri aşmaqdadır. Bunun fonunda işğalçı Ermənistan Azərbaycanın haqqa, ədalətə söykənən zəfər, qalib siyasəti ilə getdikcə, daha sərt şəkildə küncə sıxışdırılmaqdadır. Bütün bunlar, bir daha əminlik yaradır ki, işğal altında olan torpaqlarımızın azad edilməsi gün uzaqda deyil.

**Zakir Rəhimli**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsi üçün*

# Əli Kərimli və Cəmil Həsənli Gültəkin Hacıbəylini güllələyəcəklər, yoxsa yox?

*Yaxud "Azadlıq" qəzetini vaxtilə nə qədər adam alıb, ayaqyolunda arxa silmək üçün kağız yerinə işlədib...*

***"Milli Şura"nın "ledisi", "primadonnası", lakin daha dəqiq desək, aparıcı siyasi fahişəsi rolunu əldə etmiş Gültəkin Hacıbəyli, nədənsə, hakimiyyəti dəstəkləyən fəalların sosial şəbəkələrdə "klaviatura qəhrəmanlığı" edənlərə qarşı yazdıqları aqrumentli cavablardan ciddi şəkildə narahat olmağa başlayıb.***

Hətta o qədər narahat olub ki, özünün siyasi fahişəlik xüsusiyyətlərindən heç də fərqlənməyən "dərin" və "fundamental" "təhlil" yazısı ilə çıxış edib. Ümumiyyətlə, ucuz və dəyərsiz statusların kökünü, məhz bu istiqamətdə quran Hacıbəyli, zaman-zaman sual edir ki, nəyə görə cavablar, məhz adıçəkilən media qurumlarının, o cümlədən, onun özünün və AXCP sədri Ə.Kərimlinin sosial şəbəkədəki səhifələrində verilir? Eləcə də, hansı səbəbdən, dövlətin və hakimiyyətin vuran qolları hesab edilən "Yeni Azərbaycan" və "SƏS" qəzetlərində həmin cavablar yazılmır?

### Əli Kərimli və Cəmil Həsənli Gültəkin Hacıbəylini güllələyəcəklər, yoxsa yox?

Əslində, bu kimi sual G.Hacıbəylinin cinahında olanlar üçün "füsunkar" sayıla bilər. Amma iqtidar mətbuatı üçün çox cılız və təsirsizdir! Bunun isə səbəbləri var. Məsələn, Hacıbəyli uzun-uzadı "təhlilini" bir neçə hissəyə bölüb ictimai rəyə sırımağa cəhd edir ki, onun vaxtilə dəstəklədiyi iqtidarda işlətdiyi ağlı, indi daha da "artıb". Yəni müxalifətə keçəndən sonra "ağıllanıb". Amma yanılıb, özü də ciddi şəkildə...



Bu məsələyə qayıdacağıq. Amma hələlik, digər bir məsələyə də toxunmaq istərdik.

G.Hacıbəyli, bu da, azmış kimi, iddia edir ki, vaxtilə oxuduğu "Yeni Müsavat"ı belə, uzun müddətdir ki, izləmir. Nədir ki, "Yeni Müsavat" rəhbərliyi uzun illərdən sonra anlayıbmış ki, dəstəklədiyi "müxalifət" yararsız və populizm dalınca qaçanlardan ibarətiymiş. Yəni demə, bu qəzet həqiqəti dərk etdiyinə görə, oxunaqlı deyilmiş (?). Maraqlıdır, niyə G.Hacıbəyli açıq şəkildə etiraf etmir ki, "Yeni Müsavat" naftalin qoxusu verən bataqlıqdan çıxıb və reallığa doğru istiqamət alıb? Məgər bunu etiraf etsə, onu "Milli Şura"da güllələyəcəkdilərmi? Bunu çox yəqin, özləri - yəni C.Həsənli, Ə.Kərimli bilər ki, G.Hacıbəyli reallığı etiraf edərsə, onu güllələyəcəklər, ya yox... Amma daha bir reallığı etiraf etmir ki, təmsil olunduğu "Milli Şura"da cəmicümlətani neçə nəfər tur-tullantı qalıb, yaxud "Azadlıq" qəzetini vaxtilə nə qədər adam alıb, ayaqyolunda arxa silmək üçün kağız yerinə işlədib. Qaldı ki, Kərimlinin, onun özünün və Həsənlinin sosial şəbəkələrdəki səhifələrində hakimiyyəti dəstəkləyən qruplar tərəfindən cavabların yazılmasına, o bilməlidir ki, sosial şəbəkə də, məhz buna görədir. Kimsə şərh yazır, kimsə də həmin şərhləri ya bəyənir, ya bəyənmir, ya da cavablar yazır. Ona görə də, belə başa düşmək olar ki, Hacıbəyli qeyri-demokratik, yaxud avtoritar düşüncəyə malik olan fərd kimi onların yazdıqlarına qarşı tənqidi fikirlərin yazılmasını qəbul etmir. Yalnız tərif istəyir.

### Bu günə qədər bizləri azmı məhkəmələrə veriblər?

İqtidar qəzetlərindən də narahat olmasın, G.Hacıbəyli. Lazım gələndə, "Yeni Azərbaycan"da da, "SƏS"də də müxalifətə layiqli cavablar faktlara, dəlillərə və çoxsaylı sübutlara əsaslandırılaraq verilir. Bu günə qədər bizləri azmı məhkəmələrə veriblər? Məsələn, götürək digər siyasi fahişəlik yolu ilə özünə çörəkpulu qazanan Xədicə İsmayılı. Ona görə də, mövcud yazı da onlardan biridir, yəni naftalin qoxusu verən müxalifəti G.Hacıbəylinin timsalında "yıxıb-sürüyən" bir yazı, yeri gəlmişkən...

Yox, əgər G.Hacıbəyli reklam olunmağını istəyirsə, bu, başqa məsələ. Nə qədər ki, özünü bu cür siyasi fahişəlik yoluna qoyacaqsa, bir o qədər də reklam olunacaq. Bundan heç də narahatfilan olmasın, hətta istəsə Xədicə kimi məhkəməyə də gedə bilər. Bizim onun cavabını verməyə kifayət qədər aqrumentimiz var!

***Rövşən NURƏDDİNOĞLU***

*P.S. Yaxşı olardı ki, Gültəkin Hacıbəyli monqol turistlərinin haradan dublyonka almaları barədə fikirləşməsin. Bunun yerinə soğan yediyi üçün ağzından soğan iyi gəldiyi halda, "soğan yeməmişəm, amma içim göynəyir" oyunbazlığının görünməyən səbəblərini açıqlasın...*

# DİN: Ötən gün törədilmiş 21 cinayətin üstü "isti izlər"lə açılıb



Ötən gün törədilmiş 21 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 8 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 42 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 22 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 2 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb, 1 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 14 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 35 nəfər saxlanılıb.



# Angela Merkel öz postunu vaxtından əvvəl tərk etməyəcək

Almaniya kansleri Angela Merkel öz postunu vaxtından əvvəl tərk etməyəcək. Interfax informasiya agentliyi xəbər verir ki, Almaniya kansleri bu barədə Bundestaqda çıxışı zamanı bildirib. Qeyd edək ki, yerli mətbuatda son aylar səhhətində yaranan problemlər fonunda Angela Merkelin öz postunu vaxtından əvvəl tərk edə biləcəyi ilə bağlı məlumatlar yayılmışdı. 2018-ci ildə dördüncü dəfə Almaniya kansleri seçilən Angela Merkel 2021-ci ilə qədər bu vəzifəni icra etməlidir.



Təhmasib Novruzov

# *Əli İsanovun "haqq-ədalət"i?..*

***Deyir utanmasan, oynamağa nə var? Yaxşı deyimdi, vallah. İnsan nə qədər utanmaz olmalıdı ki, səksənində lambada oynasın. Vallah, Əli İnsanovun bu günlərdə yeni partiya (daha doğrusu, revanş qrupu) yaratmasını eşidəndə, istər-istəməz bu məşhur deyim düşdü yadıma. "Nədəni"ni mən bala-bala xırdalayım, oxucum da baxıb görsün haqlıyam, ya yox?***

Yadımdadı, Ə.İnsanov təzəcə səhiyyə naziri təyin edilmişdi. Özünün qeyri-adi müalicə üsulu ilə keçmiş SSRİ Tibb Elmləri Akademiyasının diqqətini çəkən bir həkim dostuma əvvəlki səhiyyə naziri tərəfindən xüsusi əmrlə təcrübəsini yaymaq üçün verilmiş bir laboratoriyanın bağlandığını və həmin həkim dostum da başda olmaqla, bütün işçilərin azad edildiyini eşitdim. Dərhal həmin həkim dostumla görüşüb, məsələnin nə yerdə olduğunu öyrənmək istədim. Məlum oldu ki, həmin qeyri-adi müalicə üsulu ilə dünyanın diqqətini çəkən loğman-həkimdən hər ay nazirə vermək üçün  nə az - nə çox, 3000 dollar tələb edilib. O da bu pulu verə bilməyəcəyini deyib. Nəticədə, laboratoriya nazirin (yəni indi haqq-ədalət partiyası yaradan Əli İnsanovun) əmri ilə bağlanıb. Bir fakt da deyəcəm. Azərbaycanın görkəmli alimləri bir araya gəlib Naftalan neftinin tullantısından çox xəstəliklərə dərman ola biləcək bir məhlul hazırlayıblar. Rusiya, Qazaxıstan və digər bir neçə ölkə bu məhlulun əhəmiyyətini anlayıb, ona sertifikat vermişdilər ki, istehsal olunsun, onlar bu məhlulu almağa hazırdılar. Ancaq məhlulun istehsalına icazə verilməli idi ki, hazırlanıb bazara çıxarılsın. Di gəl, səhiyyə naziri, yəni həmin Ə.İnsanov bu icazəni vermədi ki, vermədi. Səkkiz il qapısını kəsdirdilər, dostlarını xahişə göndərdilər, zalım oğlu, yumşalmadı ki, yumşalmadı. 100 000 dollar istədi ki, bu icazəyə imza atsın. Bunlar mənim, tibb sahəsi ilə uzaqdan-yaxından heç bir əlaqəsi olmayan birinin bildiyi onlarla faktdan ikisidir. Əminəm ki, ölkəmizdə bu adamcığazın bu və buna bənzər minlərlə əməllərini bilən on minlərlə insan var.  Hələ həbsi zamanı evindən, bağından çıxan qızıllardan, daş-qaşlardan danışmıram, çünki bu, milyonların gözləri qarşısında baş vermişdi. Həm dövlətin, həm insanların qanını soran birisinin, bu gün çıxıb haqq və ədalət adı ilə partiya yaratması, məni qınamayın, riyakarlığın və utanmazlığın son həddidir. Sənin kimliyini yaxşı tanıyan, dabbaqda gönünə bələd olan milyonlarla insanın qarşısına çıxıb, "mən haqqı, ədaləti bərpa(???) etmək istəyirəm" deməsini başqa cür mənalandırmaq, sadəcə, mümkün deyil. Yəni bu İnsanov soyadlı insan ağlını o qədərmi itirib ki, (ola bilər, axı yaşı 80-i haqlayıb...) özü öz əməllərini yaddan çıxarsın və güman etsin  ki, milyonlar da onun əməllərini yaddan çıxarıb? Bu addım doğrudan da, onun qocalığının bariz göstəricisidir, ya da... Bax əsas məsələ də bu ikinci "ya"dadı. Həbsdən çıxandan sonra, vaxtilə onu addımbaşı təhqir edən (elə həm də özünün təhqir etdiyi) siyasət dəllalları bu pullu akademikin kapitalından yararlanmaq üçün yüyürdülər üstünə. Şübhəsiz, onu qızışdırdılar ki, sən çox gümrahsan, sən hələ çox işlər görə bilərsən və s. Bu zavallı da onların küyünə gedib, girdi siyasət meydanına (üzr istəyirəm, siyasət bazarına demək istəyirdim). Nəticədə, özünə necə vuruldusa, hətta partiya yaratmağa qərar verdi. Bircə onu anlamıram ki, indi bağlı qapılar arxasında əsib-coşan bu qoca siyasət dəllalı seçkilərdə millətin qabağına çıxmalı olsa, onda necə olacaq? Axı yağan yağışlar çatlaqları örtə bilməyib!..

# Münaqişələr və insan haqları

***Yeri gəlmişkən, bir neçə söz münaqişə haqqında. Məzmun-mahiyyətinə görə, münaqişə anlayışı həm fiziki qarşıdurmanın psixoloji əsaslarını, həm də fiziki qarşıdurmanın özünü əhatə edir. Münaqişənin mühüm bir əlaməti maraq və mənafelərin müxtəlifliyini, fərqli olduğunu və tərəflərin qarşılarına qoyduqları məqsədlərə çatmalarının mümkünsüzlüyünü anlamaqdan ibarətdir. Bildirim ki, psixi halın sosial davranışa təsir göstərməsi müasir insanın öz hüquqlarını anlayıb, müdafiə etməsində mühüm amildir. Münaqişə sosial dəyişikliyi qidalandıran münbit zəmindir. Belə ki, öz vəziyyətlərini ədalətsiz sayan, yaxud cari siyasəti nöqsanlı, ziyanlı hesab edən adamlar müvəffəqiyyət qazanmaq üçün köhnə nizam-qaydaya qarşı mübarizəyə qatılırlar və pozulan hüquqların bərpasına çalışırlar. Demək olar ki, inkişaf etmiş aparıcı ölkələrdə hər bir yeni qanun uzun-uzadı mübahisə və müxtəlif maraqlar qrupu tərəfindən göstərilən təzyiq nəticəsində qəbul edir. Və "ümumi nəticə" daha çox insanların maraqlarını təmin edir ki, bu da, demokratik cəmiyyət təşkilinin və idarəetməsinin vacib şərtidir.***

Münaqişənin ikinci müsbət funksiyası adamların qanuni maraqlarının uzlaşdırılmasında, onların hansısa barışığa gəlməsində yardım göstərmişdir. Əksər münaqişələr nəticəsində, adətən, mövqelərin sintezindən ibarət bütöv bir razılaşma əldə edilir. Bu, tərəflərin, həmçinin. onların təmsil etdiyi kollektivlərin və icmaların qarşılıqlı maraqlarını təmin edən bir razılığa çevrilir. Əgər münaqişədən qaçma naminə tərəflərə bir-birinə qarşı iddialar, yaxud tələblər irəli sürməyə imkan verilirsə, möhkəm barışıq əldə etmək çox nadir hallarda mümkün olan bir şeyə çevrilir.

Münaqişənin üçüncü müsbət təsiri - qrup bütövlüyünə yardım etməsidir. Sosial dəyişikliyə, yaxud fərqli maraqları barışdırmağa təsir olmasaydı, qrup həmrəyliyi azalar, onun effektivliyi və qrup təcrübəsindən faydalanma zəifləyərdi. Nəticədə isə, qrup dağıla və amorf hala düşə bilər.

Beləliklə, sosial dəyişiklik və münaqişə dialektik münasibətdə olduqlarından, bir-birinin törədicisidir. Münaqişə bəzən ağrısız və kin-küdurətsiz həll edilir, nəticədə isə, bir neçə pozitiv funksiyaya xidmət edir. Bununla belə, münaqişənin cəmiyyətə, insanlara verdiyi ziyan və itki bir fakt olaraq qalır. Nikah və boşanma dinamikasında, valideyn və övlad münasibətlərində, müəllim və tələbə davranışlarında, nəhayət, şəxsiyyət və cəmiyyət, şəxsiyyət və dövlət, ölkə və dünya əlaqələrində ortaya çıxan ziddiyyətlər buna misal ola bilər. Bütün bu münaqişəli vəziyyətlərdə insan hüquqları məsələsi əhəmiyyətli dərəcədə öz rolunu oynayır.

Bəzən münaqişənin pozitiv funksiyaları radikal taktikalardan istifadə nəticəsində üzə çıxarılır. Münaqişənin doğurduğu təhqir, təhlükə, hətta fiziki hücum, əzab və əziyyət müqabilində, onun pozitiv funksiyalarından danışmaq çətin olur. Mübarizə şəraitində adamlar münaqişə ilə qarşılaşanda, biri öz xeyrini digərinin hesabına əldə etmək istəyəndə, muxtəlif gedişlərdən və əks-gedişlərdən istifadə etməklə, münaqişəni gücləndirirlər. Bir sözlə, gərginliyin eskalasiyası baş verir ki, bu da, qarşılıqlı özgələşmənin, nifrətin dərinləşməsinə və hüquqların pozulmasına səbəb olur.

Mütəxəssislərin göstərdikləri kimi, münaqişəli durum müasir insanı üç əsas istiqamətdə yadlaşmaya məcbur edir: özü-özünə münasibətdə; başqasına, ətraf aləmə münasibətdə, dünyaya münasibətdə. Fərqli olan bu istiqamətlər bir-birilə çarpazlaşır. Müasir qloballaşmanın isə, hər birində öz "payı" var. Eyni zamanda, bu özgələşmə istiqamətləri müasir sosiallaşmanın mahiyyətini səciyyələndirir.

Bir çox tədqiqatçıların göstərdikləri kimi, qloballaşan ifrat bazar münasibətləri şəraitində bəşəriyyətin bütün ali prinsipləri, insani dəyərləri, faktiki olaraq, deformasiyaya uğrayır və pozulur. "İqtisadi adam" insanilikdə, həyatın və iqtisadiyyatın humanistləşməsi ilə ziddiyyətə girir. O, xalqların və ölkələrin inkişafında baş verən qeyri-tarazlığı, ədalətsizliyi, nəinki aradan götürməyə, yaxud onları yumşaltmağa qadir olur, əksinə, bu bərabərsizliyi və ədalətsizliyi dərinləşdirməyə məhkumdur. Belə ki, o, qəddarlaşan dünyanın qaydaları ilə hesablaşmalı, total hökmlü kapitalın diktəsi altında hərəkət etməlidir.

İnsan hüquq və azadlıqları kontekstində müasir insanın çətinlikləri qismində yüksək gərginliyi, insani münasibətlərdə təəssübkeşliyin və istiliyin itməsini, oriyentir və mənəvi dayaq rolunu oynayan bir çox ənənəvi dəyər və meyarların sarsıntıya uğramasını, həyat tərzində instrumental-maddi amillərin təsirinin artmasını və s. qeyd etməmək mümkün deyil. Bütün bunlar həyatın keyfiyyətini aşağı salmaqla, onu daha da mənasızlaşdırır və dəyərsizləşdirir. İnsan həyatının mənası itirsə, hüquqlardan danışmaq, artıq heç bir fayda vermir. Dünyamiqyaslı bazar fundamentalizminin yaratdığı şərait hər bir fərdi, kimlər üçünsə düşmənə, rəqibə və qurbana çevirmişdir. Amansız iqtisadi situasiyanın girovunda olan insanlar qlobal kapitalizmin diktəsi altında həm milli simalarını və azadlıqlarını, həm də həqiqi seçimlərini itirməkdədirlər. Bütün bunlar müasir insan həyatının qeyri-humanistliyinə dəlalət edir ki, kütləvi surətdə insan hüquqlarının pozulması onun atributuna çevrilmişdir. Günbəgün artan tamahkarlıq, qəddarlıq, eqoistlik və digər mənəvi-əxlaqi qüsurlar, məhz mövcud mühitlə stimullaşır. İnsan üçün maddi dəyərlər, iqtisadi prestij hər şeydən yüksəkdə tutulur. Həyatın mənası və gözəlliyi əşya-əmlak, sərvət toplamaq cəhdindən ibarət olub. Belə absurd həyat dinamikasında hətta elm, incəsənət, bədii yaradıcılıq, bu sərvətə və onun sahiblərinə tabe etdirilir. Açıq-aşkar, göründüyü kimi, məzmunsuz və mənasız "işlər", "yaradıcılıq nümunələri" istehlakçı tələbini ödəməyə başlayır, çünki zövqlər, meyarlar da mənfi istiqamətdə dəyişdirilir. Heç bir pozitiv ictimai məna və yük daşımayan, bəsit təfəkkürün məhsulu olan, yalnız kommersiya maraqlarına xidmət edən "mədəniyyət" bu gün həqiqi mədəniyyəti ortadan çıxartmaqdadır. Bu gün dünyanın tanınmış elm və incəsənət xadimləri həyəcan və narahatlıq içində ibtidai, bəsit stereotiplər, instiktlər aqressiyasını pisləyir, mənəvi həyatı və mədəniyyəti destruksiyadan qorumağa səsləyirlər. Milli özünüifadədən, mənəvi - əxlaqi gücdən, ruhlandırıcı enerjidən, məsuliyyət və vicdan hissindən məhrum "mədəniyyətə" qarşı mübarizənin vacibliyindən danışırlar. Əfsuslar ki, elə bu adamların səsi-sözü, insanlara çağırışları hər vasitə ilə boğulur, onların telekanallara və müxtəlif beynəlxalq forumlara çıxışı məqsədyönlü surətdə yasaqlanır. Əgər nəzərə alsaq ki, hətta görkəmli alim-fizik, Nobel mükafatı laureatı Jores Alfyorov kimi böyük şəxsiyyətə qadağa qoyulur, durumun necə acınacaqlı olduğu kimdəsə şübhə doğurmaz. Heç Sovet İttifaqının ən senzuralı zamanlarında dahilərin ağzı belə ustalıqla "skoçlanmayıb." İndi baxın, heç bir təsirli vəzifəsi, kürsüsü titulu olmayan adi bəndə belə şəraitdə nə edə bilər?

Diqqətəlayiq faktdır ki, dünya kapitalizminin ən görkəmli simalarından da tənqidi fikirlərlə çıxış edənləri var. Məsələn, məşhur maliyyəçi və biznesmen Corc Soros bütün son əsərlərində müasir qlobal kapitalizmin doğura biləcəyi ağır nəticələrdən, hətta qarşısıalınmaz fəlakətlərdən bəhs edirdi. O, ABŞ dövlətinin, beynəlxalq korporasiyaların siyasətini ciddi tənqid edir, öz təklif və tövsiyələrini beynəlxalq ictimaiyyətə çatdırırdı. Onun son illərdə yazdığı "Dünya kapitalizminin böhranı: açıq cəmiyyət təhlükədədir," "Açıq cəmiyyət qlobal kapitalizmi islah edərkən" əsərlərini, bir çox başqa kitab və məqalələrini göstərmək olar. C.Soros dövlətlərin maraqlarının heç də həmişə vətəndaşların maraqları ilə üst-üstə düşmədiyini və insan hüquqlarının müdafiəsi üçün çox az vasitə və imkanlar cəlb edildiyini qeyd edir. Çoxsaylı beynəlxalq müqavilələrin bağlanmasına və institutların yaradılmasına baxmayaraq, onların təsiri suveren dövlətlər tərəfindən ayrılmış məhdud sahə ilə kifayətlənir. Beləliklə, Sorosa görə, milli sərhədlər daxilində baş verən hadisələr, böyük çoxluqda və əksər hallarda, beynəlxalq nəzarətdən xaricdə qalır. Onun iddiasına görə, dövlətlər öz vətəndaşlarına münasibətdə daha çox sui-istifadələrə və haqsızlıqlara yol verirlər, nəinki başqa dövlətlərlə olan münasibətlərində. Repressiv rejimli ölkələrdə yaşayan insanlar üçün çox vaxt xaricdən yardım mövcudluğun yeganə şansı olur. "Lakin başqa ölkələrin əhalisi onların köməyinə gəlmək üçün tələsmir. Bir qayda olaraq, demokratik dövlətlərin vətəndaşları öz azadlıqlarını müdafiə etməyə hazırdılar, əgər bu azadlıqlara hansısa təhlükə varsa".

Obyektiv təhlil və ümumiləşdirmələr, bir daha onu göstərir ki, qloballaşan və universallaşan dünyada insana qayğıdan, təmənnasız yardım etməkdən danışmaq hələ tezdir. Dünyanın insanpərvər, qarşılıqlı fayda verən əməkdaşlığa meyilli, Qərb və Şərq dəyərlərindən müştərək bəhrələnən qloballaşmaya ehtiyacı vardır. İnsan və insanlığa qayğı yüksək və ali məqsəd olmalıdır. Qloballaşmadan çox, müasir dünya qlobal sinergizmə ehtiyaclıdır - elmə, humanizmə, insanpərvərliyə, məsuliyyətə və vicdana söykənən sinergizmə. Bəşəriyyətin xilası və tərəqqisi bu istiqamətdədir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Kimlərə çay içmək zərərlidir?

***Həkim-dietoloq Marina Makişa çayın genetik xüsusiyyətlərindən asılı olaraq sağlamlığa fərqli təsir göstərə bilən bir tonik içki olduğunu açıqlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, mütəxəssis bildirib ki, bu mədə xorası və onikibarmaq bağırsaq xorasından kəskin şəkildə əziyyət çəkənlər, habelə yüksək mədə turşuluğuna malik olan insanlar çaydan məhdud şəkildə istifadə etməlidirlər. Belə olan halda, çoxlu çay qəbulu ürək bulanması və həzm sisteminin selikli qişalarını qıcıqlandırmasına səbəb ola bilir.***



Həkimin fikrincə, bununla yanaşı çayın tərkibindəki kofein baş ağrısı və sinir sistemində narahatlıq yarada bilər. Tünd çay ürək döyüntüsünün yüksəlməsinə və mədə şirəsinin güclü sekresiyasına səbəb ola bilər: "Buna görə də hipertaniya və aterosklerozdan əziyyət çəkənlər çay az istehlak etməlidirlər".

M. Makişa qeyd edib ki, yaşıl çaydan çox istifadə nəticəsində böyrək daşları əmələ gəl bilir: "Çünki yaşıl çayın tərkibində çox miqdarda oksalat - oksalik turşu duzları var. Yuxusuzluqdan əziyyət çəkənlərin tünd çaydan stifadə etməsi məsləhət görülmür. Tərkibindəki tanin beyin fəaliyyətini artırır və qan dövranını aktivləşdirməyə kömək edir. Əgər siz qara və ya yaşıl çay içdikdən sonra yuxusuzluqla bağlı problem yaşadığınızı müşahidə edirsinizsə, o zaman bu içkini məhdudlaşdırmağınız məsləhlidir".

Həkimin sözlərinə görə, çayın içinə əlavə edilən zəncəfil, limon onu daha da dadlı edir: "Lakin mədə-bağırsaq traktından zəiyyət çəkənlər üçün bu cür əlavələr ziyanlı ola bilər. Həkim, həmçinin stomatit zamanı limondan imtina etməyə çağırıb. Çünki, turşu şiddətli qıcıqlanmaya səbəb ola bilir".

Dietoloq mədə və bağırsaq problemləri olan insanlara südlü çay içməməyi tövsiyə edib. Mütəxəssis qeyd edib ki, çünki süd antioksidantları neytrallaşdırır və nəticədə narahatlıq yaradır. Bitki mənşəli çaylara gəlincə, həkim allergiyadan, ürək-damar xəstəliklərindən əziyyət çəkən, eləcə də qan təzyiqini sabitləşdirmək üçün dərman qəbulundan sonra bu cür çaylardan istifadənin təhlükəli ola biləcəyini qeyd edib. Həkim, həmçinin allergik, bronxit, rinit və bronxial astma xəstəliyindən əziyyət çəkənlərin ot çaylarından imtina etməyə çağırıb.

***Nailə Məhərrəmova***

## ELAN

**Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin IV kurs tələbəsi Quliyev Toğrul Qədim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


# səs

Son səhifə 28 noyabr


# YAP Binəqədi rayon təşkilatının kollektivi və gənc fəalları Səməd Vurğunun Ev-Muzeyində olublar

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, kollektivi və gənc fəalları Səməd Vurğunun Ev-Muzeyini ziyarət ediblər. Burada ziyarət iştirakçılarına muzey haqqında ətraflı məlumat verilib.***



Bildirilib ki, dahi Azərbaycan şairi, görkəmli dramaturq, alim, ictimai xadim, iki dəfə Dövlət mükafatı laureatı Səməd Vurğunun Ev-Muzeyi Azərbaycanda yazıçı və bəstəkarların xatirəsini əbədiləşdirmək üçün 1975-ci ildə açılışı olmuş ilk memorial muzeydir. Muzey XIX əsrdə inşa edilmiş yaşayış binasının 3-cü mərtəbəsində 6 otaqlı mənzildə yerləşir. Səməd Vurğun ömrünün son iki ilini bu evdə yaşamış, gərgin yaradıcılıq və ictimai fəaliyyətlə məşğul olmuşdur. Ötən müddətdə şairin yaradıcılığı xeyli araşdırılmış və muzeyin fondu xeyli zənginləşdirilmişdir. Ev Muzeyində 3 otaq Səməd Vurğunun qonaq, yataq və iş otaqları, mebelləri və əşyaları ilə birgə olduğu kimi saxlanılır. Digər 3 otaqda isə şairin yaradıcılığına və ictimai fəaliyyətinə, oğulları Yusif və Vaqif Səmədoğlulara məxsus eksponatlarla əhatə olunur. Muzeydə şairin vaxtilə dahi bəstəkarlarımız Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev və Səid Rüstəmovun ölməz əsərlərini ifa etdiyi royalı, əlyazmaları, yazı masası, skripkası və bir sıra qiymətli eksponatlar saxlanılır. Həmçinin, ev-muzeyinin qorunub-saxlanması istiqamətində göstərilən dövlət qayğısından bəhs edildi. Vurğulandı ki, burada ildə iki dəfə şairin xatirə günləri keçirilir, bir çox ictimai xadimlər, ədəbiyyat nümayəndələri və şairsevərlər iştirak edir.




Ziyarət iştirakçılarda xoş təəssüratlarla yadda qalıb.

***ZÜMRÜD BAYRAMOVA***

# YAP Masallı rayon təşkilatı bələdiyyə seçkilərinə hazırlıqla bağlı tədbir keçirib

Dünən YAP Masallı rayon təşkilatı aparatında ərazidə yerləşən 5 Seçki Dairələri üzrə 122 seçki məntəqələrində səsvermə prosesini izləyəcək partiyanı təmsil edən müşahidəçilərlə görüş keçirilib.



Görüşdə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev qarşıdan gələn bələdiyyə seçkilərindən, seçkilərlə əlaqədar görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

S.Əliyev bildirib ki, dekabrın 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə Yeni Azərbaycan Partiyası yüksək şəraitdə gedir: "Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası həyatımızın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirir. YAP-ın milli maraqlarımıza və ölkəmizin inkişafına xidmət edən fəaliyyəti cəmiyyət tərəfindən daim yüksək dəyərləndirilir. Partiyamızın öz fəaliyyətində söykəndiyi ideologiya onu daim uğurlara aparır".



YAP Masallı rayon təşkilatının sədri YAP-ı təmsil edən müşahidəçilərə Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan əsas anlayışlar, müşahidə aparmağın prinsipləri, müşahidəçilərin hüquqları və riayət etməli olduqları şərtlər barədə məlumat verib.

Görüş maraqlı diskussiya şəraitində keçib, müşahidəçiləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Sonda müşahidəçilərə yaddaş kitabçaları və Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkiləri ilə bağlı hazırladığı bukletlər təqdim olunub.

***R.HÜSEYNOVA***


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**